

ALİM FİKRİ

Azərbaycanda iqtisadi islahatlara akademik Ziyad Səmədzadənin baxışları

səh. 3



DÜNYA

Станция метро 'Низами' попала в пятерку самых красивых станций метро мира

səh. 4


İQTİSADİYYAT qəzeti 15 il

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

# iQTİSADİYYAT

№ 42 (886)
23 - 29 oktyabr
2015-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır


## Yol-nəqliyyat infrastrukturunun yenidən qurulması ilə bağlı tədbirlər uğurla davam etdirilir

Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Nəriman Nərimanovun heykəli, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak edib.



Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Azərbaycan Prezidentinə görülən işlər barədə məlumat vermişdir. Paytaxtın Həsən Seyidbəyli, Nəriman Nərimanov, Mikayıl Müşfiq, İsmayıl bəy Qutqaşınlı, Mehdi Hüseyn, Kazım Kazımzadə, Məmməd Rahim küçələrində ən yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılıb, yeni küçə - Qurban Xəlilov küçəsi və ərazidə yeni parklar salınıb.

Yeni salınan parklarda isə sakinlərin istirahətini mənalı təşkil etmək üçün hərtərəfli şərait yaradılıb. Burada geniş abadlıq və yaşıllıq işləri görülüb. Bu layihənin uğurla reallaşması bir daha sübut edir ki, ölkədə mövcud yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, yeni yolların salınması ilə bağlı tədbirlər uğurla davam etdirilir.



## Ən müasir standartlara uyğun Sabunçu Məhkəmə Kompleksi istifadəyə verildi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin açılışında iştirak edib.***

Dövlətimizin başçısı əvvəlcə kompleksin görüntülərini, həmçinin müasir məhkəmə komplekslərinin binalarının layihələrini əks etdirən stendlərə baxmışdır.

Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat vermişdir.

Bina Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində inşa olunub. Kompleksin ümumi sahəsi 9 min kvadratmetr olan yeddimərtəbəli binasının inşasına 2012-ci ilin oktyabrında başlanılıb. Tikinti işləri ən müasir standartlara uyğun aparılıb.

Kompleksdə 14 məhkəmə zalı fəaliyyət göstərir. Zallarda məhkəmə prosesinin iştirakçıları üçün hər cür şərait yaradılıb. Azərbaycan Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar kompleksdə elektron məhkəmənin tətbiqi üçün bütün zəruri infrastruktur var.

## Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi qəbul olunub

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi təsdiq edilib.



Trend-in məlumatına görə, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun layihəsi barədə Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə məlumat verib.

O, qanun layihəsinin Azərbaycan iqtisadiyyatının inkişafına mühüm töhfə verəcəyini bildirib.

Z.Səmədzadə qeyd edib ki, layihə 3 maddədən ibarətdir: "Yoxlamaların dayandırılması noyabrın 1-dən hesablanmaq şərti ilə 2 il müddətinə nəzərdə tutulur. Bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər".

Layihədə qeyd olunur ki, həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılacaq. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluq tərəfindən aparılan yoxlamalara şamil edilmir. Sahibkar bu qanunun tələbləri pozulmaqla həyata keçirilən yoxlamalardan müvafiq icra hakimiyyəti orqanına, prokurorluq orqanlarına, həmçinin inzibati və məhkəmə qaydasında şikayət verə bilər.

Qanun layihəsi səsə qoyularaq təsdiq olunub.

## Azərbaycan Qazaxıstandan dəmiryolu relsləri almağı planlaşdırır

Qazaxıstan mətbuatı xəbər verir ki, bu barədə Aktobe şəhərində yerləşən Aktyubinsk rels istehsalı zavodunun baş direktoru Andrey Kuzmin məlumat verib.



O yeni istifadəyə verilən zavodda uzunluğu 120 metr olan yüksək möhkəmliyə malik relslərin istehsal olunacağını bildirib:

"Biz, həmçinin tir, şveller, guşələr, inşaatçılar üçün profillər buraxacağıq. İlk növbədə Qazaxıstan Dəmir Yolları, yerli tikinti şirkətlərinin tələbatını ödəyəcəyik, qalan məhsulu ixraca göndərəcəyik. Bizdən Azərbaycan, Gürcüstan, Tacikistan, Qırğızıstan, Özbəkistan və Belarus rels alacaq. Zavodun layihə gücü ildə 430 min tondur. Zavodda İtaliya istehsalı olan avadanlıqlar quraşdırılıb", - deyə o bildirib.


**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**

Üstünlükləri:
- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə




MÜAYİNƏLƏR:
- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:
- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir apparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) / (050) / (055) 430 89 89
e-mail:bioklinik@biolojitababat.az

# Transxəzər qaz kəməri Türkmənistan üçün vacib gəlir mənbəyidir

Türkmənistan qazının Transxəzər qaz kəməri vasitəsilə Türkiyə və Avropa kimi bazarlara tədarükü bu layihəni Türkmənistan üçün vacib gəlir mənbəyi edir.

Bunu Trend-ə müsahibəsində Türkiyənin energetika və təbii ehtiyatlar naziri Əli Rza Alaboyun deyib.



Onun sözlərinə görə, bu layihənin reallaşdırılması regionun inkişafına xidmət edə bilər: "Transxəzər qaz kəməri kimi layihələr böyük karbohidrogen ehtiyatlarına malik Azərbaycan və Türkmənistanın Avropaya inteqrasiyası üçün vacib rol oynaya bilər".

Nazir qeyd edib ki, Transxəzər qaz kəməri layihəsinin reallaşdırılması təbii qaz tədarüklərinin təhlükəsizliyinə də xidmət edir.

Türkmənistanın dünya qaz bazarında əhəmiyyətinə gəlincə, Ə.R.Alaboyun bildirib ki, bu ölkə təbii qaz ehtiyatlarına görə dünyada dördüncü yeri tutur və Rusiyaya, Çinə qaz ixrac edir. Türkiyənin qaz alışı haqqında Türkmınistanla müqaviləsi var.

Nazir Transxəzər qaz kəməri layihəsinin reallaşdırılmasının qardaş türkdilli ölkələr arasında qarşılıqlı mənfəətli əlaqələrin inkişafına vacib töhfə ola biləcəyini istisna etməyib.



# "Neft Daşları"nda meydançalararası estakadalar əsaslı təmir edilib

"Neft Daşları" NQÇİ-də yerləşən istehsalat obyektlərinin, həmçinin texnoloji avadanlıqların təhlükəsiz istismarının təmin edilməsi, mövcud hasilat quyularının səmərəliliyinin artırılması məqsədilə estakadaların təmirinə böyük önəm verilir.

Trend SOCAR-ın saytına istinadən məlumat verir ki, bu günlərdə yataqda yerləşən Çvanov-203 saylı meydançalararası estakada əsaslı təmir edilib. 1036 metr uzunluğunda estakadanın təmiri zamanı svaylar, dəmir beton tavalar, məhəccərlər və rigerlər yenilənib.

Bundan əlavə, Neft Daşlarındakı 1 saylı Neft və Qazçıxarma Sexi ilə 1936 və 810 saylı meydançalararası estakadanın da təmiri başa çatdırılıb. Burada 660 metr uzunluğunda estakada təmir edilib və korroziyaya uğramış metal konstruksiyalar yenisi ilə əvəz olunub.

Qeyd edək ki, təmir işləri "Azneft" İB-nin sifarişi ilə "Neftqaztikinti" Tresti tərəfindən həyata keçirilib.

# AYİB Azərbaycanla əməkdaşlıq üçün əsas sahələri açıqladı



İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev Azərbaycanda səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Fil Bennetti qəbul edib.

İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, görüşdə Ş.Mustafayev Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, ölkəmizdə həyata keçirilməkdə olan iri layihələr, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində görülən işlər barədə məlumat verib. Azərbaycanın beynəlxalq maliyyə institutları ilə uğurla əməkdaşlıq etdiyini qeyd edən nazir ölkəmizlə AYİB arasındakı səmərəli əməkdaşlığın çoxşaxəli olduğunu, infrastruktur, enerji, banklara kredit xəttinin açılması və s. kimi sahələri əhatə etdiyini vurğulayıb.

AYİB-lə əməkdaşlığın genişləndirilməsi istiqamətlərinə toxunan Ş.Mustafayev korporativ idarəetmə, kənd təsərrüfatı üzrə kiçik və orta sahibkarlığa dəstək, göllərin təmizlənməsi və s. sahələrdə əməkdaşlığa dair fikirlərini bölüşüb. Qeyd olunub ki, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişafı iqtisadiyyatın prioritet istiqamətlərindəndir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində bu sahədə bir sıra işlər görülür. Dövlət başçısının sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasına, lisenziyaların sayının kəskin azaldılması və prosedurların sadələşdirilməsinə dair qərarları bu sahənin inkişafına öz müsbət töhfəsini verəcək. AYİB-in kiçik və orta sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərməsi məqsədəuyğundur.

Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti F.Bennett AYİB ilə Azərbaycan arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, ölkə iqtisadiyyatının müxtəlif sahələrində bir sıra layihələrin icrasına maliyyə dəstəyi göstərildiyini qeyd edib. O, korporativ idarəetmənin genişləndirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi, ətraf mühitin mühafizəsi və s. sahələri əməkdaşlıq üçün əsas sahələr kimi diqqətə çatdırıb.

Görüşdə, həmçinin Azərbaycan və AYİB arasında əlaqələrin genişləndirilməsi perspektivlərinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

KİVDF

www.kivdf.gov.az

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.*

# Regionlarımız yüksək standartlar, yeni meyarlar müstəvisində inkişaf edir

***Qızıl payız addımlayır, yurdumuza payız gəlir. İlin sonuna az qalıb. Bölgələrdə qayğılar artıb, mövsüm işlərini yekunlaşdıran kənd əməkçilərinin başı qışa hazırlığa qarışıb. Lakin kimin hansı işə başı qarışsa da, oktyabrın 6-da cənab prezident İlham Əliyevin Ucar və Göyçay rayonlarına etdiyi tarixi səfərlər yaddan çıxmayıb. Ölkəmizin taleyüklü məsələlərinə, dünyada baş verən xoşagəlməz olaylara rəğmən, ölkə başçısının vaxt tapıb bölgələrə səfər etməsi, yeni obyektlərin açılışını həyata keçirməsi, yerli sakinlərlə görüşüb söhbət etməsi insanların əhval-ruhiyyəsini yüksəltmiş, ruhunu təzələmişdir.***

**Son 10-11 il ərzində bölgələrimizdə, o cümlədən sözügedən Ucar və Göyçay rayonlarında yüzlərlə sosial infrastruktur obyektləri, istehsal və emal müəssisəsi tikilib istifadəyə verilmişdir. Cari ildə, yəni neftin qiymətinin aşağı düşdüyü, iqtisadi müvazinətin pozulduğu bir ildə bütün layihələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi, işlərin tempinin və vüsətinin azalmaması insanda böyük razılıq hissləri doğurur. Heç bir sahədə əvvəlki illərlə müqayisədə geriləmə, zəifləmə halları baş verməmişdir.**

Bu, cənab prezidentin Ucar və Göyçay rayonlarında açılışını etdiyi obyektlərin timsalında özünü bir daha əyani şəkildə göstərdi. Bundan başqa, bir sıra layihələrin icrası üzərində gərgin işlər gedir. Onların bir çoxunun yaxın vaxtlarda tamamlanması gözlənilir. Həmin işləri də görülən tədbirlərin üzərinə əlavə etsək, uzun bir siyahı alınardı.

## Ucarda hər yan göz oxşayır

Regional proqramların uğurlu icrası Ucar rayonunda da öz bəhrəsini verib. Hər addımda inkişaf, tərəqqi və yeniləşmə özünü göstərir. Rayon mərkəzi, kənd və qəsəbələr öz görkəmini inanılmaz dərəcədə dəyişib. Cənab prezidentin açılışını etdiyi yeni obyektlər bu gözəlliklərə xüsusi təravət və çalarlar qatıb.

Ən əlamətdar hadisələrdən biri Göyçay-Ucar avtomobil yolunun açılışı olub. Bu yolun uzunluğu 20 kilometrə yaxındır. Eni 12 metr olan yolda iki hərəkət zolağı vardır. Yol üzərində müxtəlif qovşaqlar və dəmir yolu körpüsü tikilib. Bu yol Göyçay-Ucar istiqamətində avtomobillərin rahat hərəkətini təmin edəcək, eyni zamanda, bölgənin iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir.

Ölkəmizdə gənclər siyasətinin formalaşdırılmasının əsası, bütün digər sahələrdə olduğu kimi, ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu siyasət 2004-cü ildən başlayaraq cənab Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə inkişaf etdirilməyə başlamışdır. Bugünkü uğurların qazanılmasında 2005-2009-cu illəri əhatə edən «Azərbaycan gəncliyi» və hazırda həyata keçirilməkdə olan «Azərbaycan gəncliyi: 2011-2015-ci illərdə» Dövlət Proqramları xüsusi önəm daşıyır. Sözügedən proqramların icrası Azərbaycan gəncliyini uca zirvələrə gətirib çıxardı, çağdaş dünyanın inkişaf axarında öz yerini və rolunu müəyyən etməyə imkan verdi.

**Ərazisi 2 min kvadratmetr olan Ucar Gənclər Mərkəzi respublikamızda ən böyük gənclər mərkəzindən biri hesab olunur. Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, burada həmçinin ulu öndərin həyat və fəaliyyətini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Burada qurulan 7D formalı kinozal orijinallığı ilə diqqəti cəlb edir. Elektron kitabxana və tamaşaçı zalı müasir avadanlıqlarla təchiz olunub. Mərkəzdə atıcılıq salonu yaradılıb. Salonda ibtidai hərbi hazırlıq keçmək üçün interaktiv və pnevmatik silahlardan atəş açma bacarıqlarına yiyələnilir. Mərkəzdə xarici dil, sənət və peşə kursları, eyni zamanda, Aşıq məclisi və Poeziya dərnəyi fəaliyyət göstərir.**

600 kvadratmetr olan Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının binası müasir avadanlıq və ləvazimatlarla təchiz olunub. Binanın foyesində YAP-ın qurucusu Heydər Əliyevin büstü qoyulub, maraqlı eksponat və fotolardan ibarət guşə yaradılıb. 1993-cü ildə yaradılan Ucar rayon təşkilatı bu gün 4 mindən artıq üzvü özündə birləşdirir ki, bunun da 35 faizini gənclər və 50 faizə qədərini qadınlar təşkil edir. YAP sıraları günbəgün möhkəmlənir, rayonun ictimai-siyasi və iqtisadi həyatında, abadlıq-quruculuq işlərində partiya üzvlərinin rolu artır.

Azərbaycanın zəngin tarixini və mədəniyyətini əks etdirən mühüm müəssisələrdən biri də muzeylərdir. Muzey işinin inkişafında son illər mühüm addımlar atılıb. Tarix-diyarşünaslıq muzeyləri bu xüsusda mühüm əhəmiyyət daşıyır. Həm gənclərimizi tarixi keçmişimizə qovuşdurmaq, həm də turizmi inkişaf etdirmək baxımından tarix-diyarşünaslıq muzeyləri əvəzsiz rol oynayırlar. Ucar şəhərinin mərkəzində inşa olunan, memarlıq üslubu və dizaynı ilə diqqəti çəkən Tarix-Diyarşünaslıq Muzeyinin istifadəyə verilməsi ucarlıların hədsiz sevincinə səbəb olmuşdur.

Ucarda yaradılan «Fermer» yol-istirahət kompleksi 3 hektar ərazidə salınıb. 1200 kv.m sahəsi olan yarmarkada Ucar və ətraf rayonlarda yetişdirilən kənd təsərrüfatı məhsulları satılır. Burada, həmçinin 24 saat fəaliyyət göstərən aptek və market vətəndaşların ixtiyarına verilib. Kompleksin ərazisində süni göl, istirahət guşələri, kotteclər, 80 nəfərlik banket zalı yaradılıb, ətraf ərazilərdə çəmənliklər, yaşıllıq zolaqları salınıb.

**Bir məsələni qeyd etmək yerinə düşərdi ki, indiyədək Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə Aran İqtisadi rayonu üzrə 11400 sahibkara 445 milyon manat, o cümlədən yeni texnologiyalara əsaslanan 10 loqistik mərkəz və 9 taxıl anbarı, 8 iri fermer təsərrüfatı, 15 quşçuluq təsərrüfatı, 10 cins heyvandarlıq kompleksi, 4 üzümçülük, 4 intensiv bağçılıq təsərrüfatları, 6 meyvə-tərəvəz, 5 süd və 2 ət emalı zavodları, 1 spirtli içkilər, 5 tikinti materialları və 4 digər istehsal və emal sahələri olmaqla 95 müəssisə yaradılmışdır. "Ucar-Aqro" MMC-nin kəsim və broyler fabriklərinin birinci mərhələsinin dəyəri 20,4 milyon manat, ikinci mərhələsinin dəyəri isə 10 milyon manat olmaqla, güzəştli kreditlər hesabına inşa edilmişdir. Belə ki, rayonun Qızılqumlar kəndi ərazisində hər biri 35 min baş quş tutumuna malik 25 ferma tikilmiş, Alpout kəndi ərazisində sutkada 6 min quş kəsimi gücünə malik müasir tipli quş emalı fabriki tikilib istifadəyə verilmişdir. Fabrikdə əsas istehsal prosesi 5 sahədə – kəsim, şoklama, soyutma, bölünmə və qablaşdırma sahələrində aparılır. Burada 65 çeşiddə istehsal olunan quş əti məhsulları «Mərcan» brendi ilə istehlakçılara satılır. Gələcəkdə istehsal gücü sutkada 20 ton olan yem zavodunun, illik istehsal gücü 10 milyon ədəd damazlıq yumurta olan fabrikin və 4 min hektar ərazidə müasir tipli nəhəng taxılçılıq təsərrüfatının yaradılması nəzərdə tutulur.**

«Ucar şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması layihəsi» 2035-ci il perspektivi nəzərə alınmaqla 22 min əhalinin içməli su və kanalizasiya sisteminin yaxşılaşdırılmasını nəzərdə tutur. Layihə çərçivəsində, eyni zamanda, 37 min əhalinin yaşadığı 15 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə isə, bu layihədən 59 min adam faydalanacaq. Hazırda Ucar Su Kanal İdarəsi üçün inzibati bina, eyni zamanda, Ucar şəhərini təmin etmək üçün hər birinin tutumu 3756 kubmetr olan 2 su anbarı tikilib, Ucar şəhərində 120 kub metr içməli su şəbəkəsinin inşası tam yekunlaşıb, 4891 ünvana birləşmə verilib, smart sayğaclar quraşdırılıb. Şəhər üzrə layihələndirilən 88 kilometr kanalizasiya xəttinin 20 kilometr hissəsi hazırdır. Gələcəkdə 10 min kubmetr istehsal gücünə malik olan su təmizləyicisi qurğunun tikintisi nəzərdə tutulur.

Təhvil verilən obyektlərdən biri də Ucar rayon Mərkəzi xəstəxanasının binasıdır. Yeni xəstəxana binası üçün 4,4 hektar torpaq sahəsi ayrılmış və burada 4 korpusdan ibarət ikimərtəbəli kompleks tikilmişdir. İnşaat işlərinə 2011-ci ildən başlanmış və oktyabr ayında istifadəyə verilmişdir. 118 çarpayılıq xəstəxanada 341 tibbi personal çalışacaq ki, bunun da 84-ü həkimdir. Mərkəzi xəstəxana və konsultativ poliklinikada bütün şöbələr yaradılmış və ən müasir avadanlıq və cihazlarla təchiz olunmuşdur.



## Göyçay şəhərsalma prinsipləri əsasında qurulub

Göyçay rayonunda səfəri zamanı cənab Prezident burada görülən işləri yüksək qiymətləndirərək demişdir: «Göyçay çox gözəl şəhərdir. Tarixən də belə olub. Əsası da möhkəm qoyulub. Demək istəyirəm ki, Göyçayda olan şəhərsalma mexanizmləri, prinsipləri heç də hər şəhərdə yoxdur. Şəhər çox gözəldir, yaşıllıq boldur. İndi aparılan təmir-bərpa işləri, parkların salınması, ictimai yerlərin yaradılması şəhəri daha da gözəlləşdirir...

Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli sərəncamına əsasən, kiçik su elektrik stansiyalarının geniş tətbiq edilməsi məqsədilə xüsusi proqram hazırlandı. Mütəxəssislərin fikrincə, respublikamızın bölgələrində dağ çayları və suvarma kanalları üzərində mini elektrik stansiyaları tikmək olar. Cənab Prezidentin sərəncamına uyğun olaraq, bu gün bir sıra bölgələrdə bu tipli elektrik stansiyalarının tikintisi aparılır. Gücü 3,1 meqavat olan «Göyçay» elektrik stansiyası isə artıq istismara hazırdır. Stansiyanın inşasına 2010-cu ilin fevral ayından başlanıb. Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilən stansiya Göyçay rayonu əhalisinin elektrik enerjisi tələbatının 25 faizini ödəyəcək. Stansiya 5 hektar ərazidə tikilib. Burada geniş miqyaslı yaşıllaşdırma və abadlıq-quruculuq işləri aparılıb.

**Göyçay şəhərində dördmərtəbəli, 170 çarpayılıq xəstəxana, konsultativ poliklinika əsaslı şəkildə yenidən qurulub. Ümumi sahəsi 12 min kvadratmetrə yaxın xəstəxana binası əsas, yoluxucu xəstəliklər və digər korpuslardan ibarətdir. Xəstəxananın müalicə korpusunda qəbul, diaqnostika, rentgen, kompyuter-tomoqrafiya, ginekologiya, urologiya, travmatologiya, terapiya, anesteziologiya-reanimasiya şöbələri, cərrahi əməliyyat bloku və s. var.**

Rayon Mərkəzi Xəstəxanası ən müasir tibbi avadanlıq və ləvazimatlarla təchiz olunub. Mərkəzi xəstəxana və poliklinikada 102 həkim və 223 tibb işçisi çalışır. Laboratoriya bütün zəruri avadanlıqlarla təchiz edilib. Artıq Azərbaycan modern texnologiyaların tətbiq edildiyi bir məkana çevrilib. İlk dəfə olaraq açıq ürək əməliyyatı və qaraciyər köçürmələri kimi mürəkkəb əməliyyatların regionlarda da həyata keçirilməsi mümkün olmuşdur.

İndi hər bir bölgədə açılan Gənclər Mərkəzləri gənclərimizin fiziki və intellektual inkişafında müstəsna rola malikdirlər. Göyçay Gənclər Mərkəzi də bu qəbildəndir. Tikinti sahəsi 3400 kvadratmetr olan ikimərtəbəli yaraşıqlı binanın inşası Göyçayın memarlıq ansamblına yeni çalarlar əlavə etdi. Zövq oxşayan, gənclərin istirahəti və məşğuliyyəti üçün hər cür şərait yaradılan bu mərkəz gələcəkdə neçə-neçə gəncin ömür yoluna işıq saçacaq. Binanın foyesində ümummilli liderimizin büstü qoyulub, onun Göyçay rayonuna səfərlərini əks etdirən stendlər yaradılıb. Mərkəzdə prezident İlham Əliyevin gənclərlə görüşlərini sərgiləyən guşələr təşkil olunub. Burada boulinq zalı, qolf, intellektual oyun otaqları, kafe, rəqs studiyası, xarici dil kursları, rəsm, xalçaçılıq, poliqrafiya, heykəltəraşlıq dərnəkləri fəaliyyət göstərir. Mərkəzdə, həmçinin 60 yerlik iclas zalı və 15 yerlik konfrans zalı var.

Göyçay şəhərinin içməli su və kanalizasiya layihəsinin icrasına 2008-ci ildən başlanılıb. Keçən müddət ərzində Göyçay şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə üç subartezian quyusu qazılıb, hər birinin tutumu 2000 kubmetr olan iki anbar inşa edilib. Eyni zamanda, Göyçay Su Kanal İdarəsi üçün yeni ofis binası və istehsalat bazası tikilib istifadəyə verilib. Layihə çərçivəsində 147 kilometr uzunluğunda içməli su şəbəkəsinin tikintisi tam yekunlaşıb, 9761 ünvana birləşmə verilib, smart tipli sayğacla təmin olunub. Hazırda Göyçay şəhərinin bütün əhalisi fasiləsiz içməli su ilə təmin olunur. Şəhərin kanalizasiya sisteminin yenidən qurulması layihəsi çərçivəsində layihələndirilmiş 123 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin tikintisi başa çatdırılıb. Göyçay şəhərinin tullantı sularından təmizlənməsi üçün sutkada məhsuldarlığı 20 min kubmetr olan qurğu tikiləcək. Layihənin icrası 2016-cı ildə tam başa çatdırılacaq.

Göyçayda cənab prezidentin iştirakı ilə açılışı həyata keçirilən Göyçay Uşaq musiqi məktəbi, YAP Göyçay rayon təşkilatı üçün inzibati bina, Göyçay Şahmat məktəbi sakinlərin, xüsusilə də gənclərin hədsiz sevincinə səbəb olmuşdur.

Kənd və qəsəbələrin qazlaşdırılması prosesi artıq yekunlaşma mərhələsindədir. Kənd yollarının əsaslı təmiri, tikintisi və yenidən qurulması tədbirləri davam etdirilir.

**Cənab prezidentin səfər etdiyi hər iki rayonda görülən işlərin miqyasını göstərmək üçün çoxlu sayda faktlar, rəqəmlər göstərmək olar. Lakin buna ehtiyac yoxdur. Necə deyərlər, hər şey göz qabağındadır. Yuxarıda sadalanan, yaxud sadalanmayan möhtəşəm işlərin ərsəyə gəlməsinə milyonlarla manat maliyyə xidməti sərf olunub.**

**Daim iqtisadi yüksəlişə və zirvəyə can atan doğma Azərbaycanımızın hər bir bölgəsi, hər bir yaşayış məntəqəsi, hər bir guşəsi qarşıdan gələn illərdə daha da çiçəklənəcək, nura, işığa qərq olacaqdır.**

***Zülfü İLYASOV,***
***bölgə müxbiri***

# Azərbaycanda iqtisadi islahatlara akademik Ziyad Səmədzadənin baxışları

*Dəyərli həmkarlarım, bu çıxışı yazmağa başlayanda xeyli fikirləşdim: nədən başlayım? Axı, gələcəyin iqtisadçı akademiki ilə mənim tələbəlik illərim, birgə iş yerim, yaradıcılıq vaxtlarım olmuşdur. Bütün bunların tarixi 60 il öncəyə gedib çıxır. Hələ tələbəlik illərində Ziyad tələbə elmi cəmiyyətinin və bədii özfəaliyyət kollektivinin üzvü kimi K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun ictimai həyatında fəal iştirak etmişdir. Sonrakı illərdə qarşımıza qoyduğumuz məqsədlər uğrunda mübarizə yollarımızı müxtəlif etmişdir. Nəhayət, ali məktəbi qurtardıqdan 12 il sonra Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin İqtisadiyyat İnstitutunda birgə işləməyə başladıq. Oradan da mən Dövlət Plan Komitəsinə, o isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin aparatına işə dəvət olunduğuna görə yaradıcılıq əlaqələrimiz dövlət səviyyəsində davam etdi...*



1961-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) İqtisadiyyat fakültəsini bitirən, Moskvada aspirant kimi təhsilini davam etdirən Ziyad müəllim 1965-1971-ci illər ərzində namizədlik və doktorluq dissertasiyalarını müdafiə etmişdir. O, 1989-cu ildən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvüdür.

Tarix elə gətirdi ki, 1991-ci ildə ikinci dəfə Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildi, bazar iqtisadiyyatına keçidlə bağlı iqtisadi islahatlar dövrü başladı. İslahatların həyata keçirilməsi strategiyası, konsepsiyası, konkret yolları, istiqamətləri həm dövlət orqanlarında, həm də elmi mərkəzlərdə çalışan iqtisadçıların mübahisə obyektinə çevrildi. Problemlə bağlı iqtisadçılar iki cəbhəyə bölündülər: birincisi, "şok terapiyası" əsasında sürətlə iqtisadi liberallaşma; ikincisi, tədricən, dövlətin tənzimləmə funksiyalarından istifadə etməklə iqtisadi islahatları aparmaq, bir iqtisadi sistemdən digərinə transformasiya etmək. Başqa sözlə, tələsmədən tələsmək.

**İqtisadçı alimlərimizin və mütəxəssislərimizin, o cümlədən yuxarı və mərkəzi idarəetmə orqanlarında çalışan iqtisadçılarımızın bir çoxu birinci konsepsiyanın tərəfdarı oldu. O dövrdə və indi də gələcəyin iqtisadçı akademikinin ikinci cəbhənin tərkibində olduğu qənaətindəyəm. Onun XX əsrin doxsanıncı illərində dərc olunmuş məqalələri, müsahibələri, elmi əsərləri ilə tanışlıq bu qənaətə gəlməyimi şərtləndirmişdir. 1992-1993-cü illərdə akademik Ziyad Səmədzadə Azərbaycanda iqtisadi islahatlara baxışlarını, transformasiya dövrünün iqtisadi problemlərinə həsr olunmuş mövqeyini, bir qayda olaraq, dövlət qəzetlərində, o cümlədən "Azərbaycan" və "Народноехозяйство" jurnalında ictimaiyyətə çatdırmışdır. Mən də özümü ikinci qrupun tərkibində hesab edirəm. İnformasiya üçün qeyd edim ki, Xalq Cəbhəsinin hakimiyyətindən qabaqkı dövrdə mənim rəhbərliyim və bilavasitə iştirakımla Azərbaycanın bazar iqtisadiyyatına keçid modelinə həsr olunmuş bir proqram da hazırlanmışdır. Onun mahiyyəti 1991-1994-cü illərdə "Vışka", "Бакинский рабочий" və "Azərbaycan" qəzetlərində, "Экономика и жизн" jurnalında, "Подходы, логика и этапы перехода на рыночную экономику", "Где выход из кризиса", "Нужны работающие законы", "Приватизация: торопитыя медленно", "К рынку – без суети и спешки", "Planlaşdırma lazımdırmı?" və sair adlar altında dərc edilmişdir. 1994-cü ildə Milli Məclisdə aparılan iclasda həmin proqramın mahiyyətini açıq-lamışdım.**

2009-cu ildə çapdan çıxmış "Azərbay-y-canda investisiyalar" adlı əsərimdə mən də yazmışam: "...Sürətlə liberallaşdırma həyata keçirən Baltikyanı respublikalardan ancaq Estoniya 2005-ci ildə 1989-cu ilin ümumi daxili məhsulunun səviyyəsinə çatmışdır. Tədricən islahatlar aparan Belarus və Özbəkistan respublikaları bu göstəriciyə daha tez və yüksək rəqəmlərlə nail olmuşlar. Belə ki, 2005-ci ildə 1990-cı ilə nisbətən ümumi daxili məhsulun indeksi Özbəkistanda 129, Belarusda 126,5, Azərbaycanda 111 faiz təşkil etmişdir. Sənaye məhsulunun ümumi həcminin indeksi Özbəkistanda 180, Belarusda 153, Azərbaycanda 52 faiz olmuşdur. Rusiya ekspertlərinin fikrincə, liberallaşdırma ilə iqtisadi dinamika arasında asılılıq varsa, o da mənfidir.

1990-cı ildə Azərbaycan SSR Ali Sovetinin deputatı və Plan Büdcə Komissiyasının sədri, 1991-1992-ci illərdə Azərbaycan Ali Soveti Sədrinin birinci müavini işlədiyi dövrdə Ziyad müəllimin rəhbərliyi altında və bilavasitə iştirakı ilə "İqtisadi müstəqilliyin əsasları" konstitusiya qanunu hazırlanmış və təsdiq edilmişdir. Qanunun hazırlanmasına xalq təsərrüfatının müxtəlif sahələrində çalışan görkəmli alimlər, iqtisadçılar və hüquqşünaslar cəlb edilmişlər. Şəxsən mən Ziyad müəllimin dəvəti ilə əlimdə qələm bu işdə fəal iştirak etmişəm.

1992-ci ilin sentyabr ayında "Bakinskiy raboçiy" qəzetinə verdiyi müsahibədə Ziyad müəllim vurğulamışdır ki, Rusiya hökuməti islahatları, təbii ki, Rusiyanın maraqlarından çıxış edərək həyata keçirir. Biz isə konkret şəraiti, tələbatı, öz ölkəmizin maraqlarını nəzərə almadan faktiki olaraq kor-koranə onları təkrarlayırıq. Populizm və səriştəsizlik ilk növbədə bizim iqtisadi siyasətimizə böyük zərbə vurur.

**Ziyad müəllimin iqtisadi islahatlara baxışı barədə danışarkən ilk olaraq dövlətin iqtisadiyyatda rolu barədə onun mövqeyinə diqqət yetirmək istərdim. "Gtapı bolğşoqo puti" əsərində akademik yazmışdır: "Bazar iqtisadi sistemində istər-istəməz iqtisadiyyatın idarə edilməsi prosesində dövlətin rolu azalır. Ancaq bu, o demək deyil ki, dövlət iqtisadiyyatdan ümumiyyətlə gedir. Çoxsaylı inkişaf etmiş ölkələrdə dövlət sahibkarlığı institutu müvəffəqiyyətlə fəaliyyət göstərir. Dövlət sahibkarlığı respublika iqtisadiyyatının uzunmüddətli inkişafı üçün mühüm amildir".**

1992-1993-cü illərdə mövcud olan iqtisadi idarəetmə sistemini tənqidi qiymətləndirərək akademik qeyd etmişdir ki, vaxtilə Dövlət Plan Komitəsi bütün iqtisadi siyasətin mərkəzi orqanı olmaqla güclü təsiredici qüvvəyə malik idi ("**Этапы большого пути**", 2004, s.641). Ancaq hər şeyi hər yerdə kökündən dağıtmağın həvəskarları bu aparıcı orqanı mahiyyət etibarilə idarəetmə strukturunda quruma çevirdilər. İndiyə qədər də "planlaşdırma" anlayışı çinovnikləri qorxudur. Keçmiş Sovetlərin qalığı kimi ondan hər vəchlə uzaqlaşırlar. Axı, hamıya yaxşı məlumdur ki, hətta inkişaf etmiş çoxsaylı ölkələrdə belə dövlət səviyyəsində perspektiv və cari planlar tərtib edilir. Əlavə edim ki, ABŞ-da, Fransada, Yaponiyada, Birləşmiş Ərəb Əmirliklərində, Misirdə, İsraildə müxtəlif adlar altında planlaşdırma orqanları vardır.

Akademik haqlı hesab edir ki, adambaşına ümumi milli gəlirə, həyat səviyyəsinə, rəqabət qabiliyyətinə görə digər ölkələrə nisbətən geriliyi aradan qaldırmaq üçün ölkənin iqtisadi elmi potensialını, mərkəzi idarəetmə orqanlarının iqtisadi fəaliyyətini və bütünlükdə sahibkarlıq fəaliyyətini koordinasiya etməyə ciddi ehtiyac vardır.

"Azərbaycan" qəzetində (28.09.1993) akademik yazmışdır: "Mən əminəm ki, iqtisadiyyata dövlət nəzarəti olmadan biz iqtisadiyyatda ciddi tərəqqiyə nail ola bilməyəcəyik". O, əlavə etmişdir ki, belə nəzarət Qərb ölkələrinin hamısında mövcuddur. Bizim üçün dövlət nəzarəti xüsusilə vacibdir. Çünki biz keçid mərhələsindəyik. Bütünlükdə ölkə, o cümlədən iqtisadiyyat dövlət tərəfindən ağıllı idarə olunmadığına görə iqtisadi islahatların ilk mərhələsində biz keçmiş ittifaqın keçmiş respublikalarından əhəmiyyətli dərəcədə geri qalmışıq. Belə ki, 1993-cü ildə 1990-cı illə müqayisədə ümumi daxili məhsulun fiziki həcm indeksi Özbəkistanda 86 faiz olduğu halda, Azərbaycanda 59 faiz təşkil etmişdir. Hətta 2002-ci ildə 1990-cı ilə nisbətən həcm indeksi Azərbaycanda 72, Belarusda 97, Özbəkistanda 106 faiz olmuşdur. Ziyad müəllim hesab etmişdir ki, iqtisadiyyat üzrə mərkəzi idarəetmə orqanları praktiki olaraq iqtisadiyyata təsirini itirmişdir.

**O dövrün praktikasının əksinə olaraq, akademik hesab edirdi ki, iqtisadiyyatın stabilləşdirilməsi üçün fəal iş aparılması ilə eyni zamanda bazarı tənzimləyən rıçaqların (mexanizmlərin) tətbiqi tələb olunur. 10 il öncə iqtisadi mexanizmlərin tətbiqi barədə Ziyad müəllimin bəyan etdiyi mövqe bu gün də aktuallığını itirməyib.**

1992-ci ilin sentyabrında "Bakinskiy raboçiy" (08.09.1992) qəzetinə verdiyi müsahibədə yanacaq, enerji və kənd təsərrüfatı məhsullarına, həyat səviyyəsinə həlledici təsiri olan istehlak mallarına və xidmətlərə qiymətlərin dövlət tənzimlənməsini, mühüm məhsulların istehsalı üçün güzəştli kreditlərin verilməsini, əlavə dəyər vergisinin diferensiasiya edilməsini, mənfəət vergisinin azaldılmasını, istehlak malları istehsalının stimullaşdırılmasını vacib hesab etmişdir ("**Этапы большого пути**", 2004, s.367). Akademik iqtisadi proseslərin tənzimlənməsində balans metodunun rolunun yüksəldilməsinin, respublikanın bütün iqtisadi orqanlarının fəaliyyətinin əlaqələndirilməsi mexanizmlərinin işlənib hazırlanmasının, daxili bazarın qorunmasının zəruri olduğunu diqqətə çatdırmışdır. 2000-ci ildə yazdığı məqaləsində akademik Ziyad Səmədzadə haqlı olaraq hesab edir ki, əhalinin əsas hissəsinin həyat səviyyəsi və keyfiyyətini yüksəltmək XXI əsrdə yeni inkişaf modelinin meyarı olmalıdır ("İqtisadiyyat" qəzeti, 22-27.12.2000, "XXI əsr: Azərbaycan iqtisadiyyatı haqqında düşüncələr").

1994-cü ilin oktyabr ayında "Bakinskiy raboçiy" (14.10.1994) qəzetində dərc olunmuş "**Как возродить экономику?**" adlı məqaləsində Ziyad müəllim daxili bazarın qorunmasını, bu məqsədlə müvafiq iqtisadi mexanizmin hazırlanmasının zəruriliyini tövsiyə etmişdir.

Bu gün beynəlxalq təcrübə göstərir ki, açıq iqtisadi siyasət o zaman məqsədəuyğundur ki, ölkə iqtisadiyyatı rəqabətqabiliyyətlidir və güclü xarici iqtisadi məhdudiyyətlər mövcuddur. Vaxtilə Yaponiyada və Cənubi Koreyada ixracyönümlü siyasətin modifikasiya olunmuş bir variantını tətbiq etmişlər. Modifikasiya ondan ibarət olmuşdur ki, rəqabətqabiliyyətli malların və kapitalın ölkəyə sərbəst daxil olmasına icazə verilməmişdir. Sonradan Çin və digər iri Asiya və Latın Amerikası ölkələri bu istiqaməti tətbiq etmişlər.

Bu gün Azərbaycanda liberallaşdırmanın bir təzahür forması kimi açıq iqtisadi siyasət həyata keçirilir. Xarici iqtisadi siyasət tamamilə liberallaşdırılmışdır, dövlətin iqtisadiyyata müdaxiləsi keçid dövrünün başlanğıcından məhdudlaşdırılmışdır. Hətta özəl təsərrüfat obyektlərinin xarici əməliyyatlarla bağlı müqavilələrinin gömrük orqanlarında qeydiyyatı da ləğv edilmişdir, idxal-ixrac kvotalarından istifadə olunmur.

**Unudulmaz Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş, 2004-cü ildə işıq üzü görmüş "Gtapı bolğşoqo puti" adlı fundamental tədqiqat əsərində Sovetlər dövründə ölkənin iqtisadi inkişafında əldə olunan danılmaz uğurlar, SSRİ-nin dağılmasının yaratdığı problemlər, keçid dövrünün əvvəlində yaranmış iqtisadi problemlər, "Əsrin müqaviləsi"nin Azərbaycan iqtisadiyyatında müsbət rolu, 1994-2003-cü illərdə ölkə iqtisadiyyatında baş verən inqilabi dəyişikliklər obyektiv və geniş əhatəli məzmunda əks etdirilmişdir. Əsərin ikinci hissəsi müstəqil Azərbaycanın iqtisadi sisteminin formalaşmasına və inkişafına həsr olunmuşdur.**

1993-cü ilin prezident seçkiləri ərəfəsində "Bakinskiy raboçiy" qəzetinə müsahibəsində Ziyad müəllim demişdir: "Mən istərdim ki, respublikanın rəhbəri postunda çox təcrübəli, enerjili və müdrik siyasətçi, xalq təsərrüfatı kompleksinin problemlərini yaxşı bilən, ətrafında cəmiyyətin sağlam qüvvələrini birləşdirmək qabiliyyəti olan Heydər Əliyevi görüm".

Unudulmaz Heydər Əliyevin rəhbərliyi dövründə müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının miqyası haqqında burada uzun-uzadı danışmağa ehtiyac duymuram. Təkcə onu deyim ki, 2003-cü ildə 1993-cü ilə nisbətən ölkənin ümumi daxili kənd təsərrüfatı məhsullarının istehsalı 25 faiz artmışdır. Əsas kapitala investisiyaların həcmi 22 dəfə artmış, 10 il ərzində 12 milyard manata yaxın olmuşdur. Ancaq sənaye məhsulu istehsalı azalmış və 1993-cü ilin istehsal həcminin 72 faizini təşkil etmişdir.

2003-cü ildən Azərbaycan iqtisadiyyatında yeni mərhələ başlanmışdır. 2004-cü ildə akademik Ziyad Səmədzadə vurğulamışdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkə iqtisadiyyatının inkişafının düşünülmüş proqramı var. Bu proqram elmi cəhətdən əsaslandırılıb, dərin sistemli təhlil nəticəsində müəyyənləşdirilib və günün reallığına uyğundur.

Yuxarıda qeyd olunanların müasir dövrdə aktuallığını sübut etmək üçün uzun-uzadı danışmağa ehtiyac duymuram. Ancaq ölkə başçısının Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında səsləndirdiyi dərman, hava nəqliyyatı və xidmət bazarının, turizm sektorunun dövlət tərəfindən tənzimlənməməsi, ipoteka mənzil bazarının çox zəif inkişaf etməsi, kredit faizlərinin real sektorun inkişafına zəif xidmət etməsi barədə fikirlərini diqqətə çatdırmağı kifayət hesab edirəm.

**Akademikin 2001-ci ildə işıq üzü görmüş "Çin iqtisadi möcüzəsi", 2009-cu ilin nəşri olan "Çin qlobal dünya iqtisadiyyatında" adlı əsərləri bütünlükdə postsosialist ölkələri ilə müqayisədə Çin Xalq Respublikasında transformasiya proseslərinin elmi-praktik cəhətdən əsaslandırılmış olduğunu əks etdirir. Hər iki əsərin epiqrafı kimi seçilmiş Çində islahatların atası Den Syaopinin "Planlı iqtisadiyyat hələ sosializm demək deyildir, bazar iqtisadiyyatı heç də kapitalizm demək deyildir" kəlamı və müəllifin "Çinin inkişaf modelində radikallığa yol verilməmişdir" qənaəti, mənim fikrimcə, iqtisadçı Ziyad Səmədzadənin daxili əminliyinin ifadəsidir.**

Keçid iqtisadiyyatlı ölkələrin təcrübələri ilə tanış olduqdan sonra məndə də belə bir əminlik yaranmışdır ki, bizim üçün strategiya seçmək baxımından Çin Xalq Respublikasının iqtisadi islahatlar sahəsindəki təcrübəsi maraqlı ola bilərdi. Bu fikri mən 2009-cu ildə çapdan çıxmış "Azərbaycanda investisiyalar" (s.72) adlı monoqrafiyamda əsaslandırmışam.

Onu da deyim ki, son bir neçə ildir inkişaf etmiş Qərb ölkələri və rus alimləri Çin iqtisadi inkişaf modelinin tədqiqinə və qiymətləndirilməsinə xüsusi fikir verirlər. Onlar bu ölkənin nə ictimai-siyasi sistemini, nə də iqtisadiyyatının təşkili və idarə edilməsini xalis kommunist ölkəsinə xas olan qurum kimi dəyərləndirirlər. Hazırda dünyanın ikinci iqtisadiyyatı hesab edilən ölkə, ekspertlərin qiymətləndirməsinə görə, 2030-cu ilə qədər birinci sıraya çıxacaqdır.

Yüksək əmək qabiliyyəti və insanlarla ünsiyyət qurmaq xüsusiyyətlərinə görə Ziyad müəllim Azərbaycanın sərhədlərindən kənarda da tanınır, xarici ölkə alimləri ilə yaradıcılıq əlaqələrini davam etdirir. O, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti və Azərbaycan İqtisadçılar İttifaqının sədridir. 1999-cu ildə onun təsis etdiyi "İqtisadiyyat" qəzeti dəyərli informasiya mənbəyi olmaqla yanaşı, həm də iqtisad elminin inkişafına xidmət edən elmi məqalələrlə oxucuları özünə cəlb edir.

**Akademik Ziyad Səmədzadə elmi-tədqiqat işləri ilə yanaşı, Azərbaycanın ictimai həyatında da fəal iştirak edir. Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri kimi ölkədə iqtisadi fəaliyyəti tənzimləyən qanunvericilik aktlarının hazırlanmasına və qəbul edilməsinə həm rəhbərlik, həm də onların ərsəyə gəlməsində bilavasitə iştirak edir. O, 500-dən çox elmi əsərin müəllifidir.**

**Akademik Ziyad Səmədzadənin xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2010-cu ildə "Şöhrət", 2015-ci ildə "Şərəf" ordenləri ilə təltif edilmişdir.**

***Tofiq Hüseynov,***
***Azərbaycan Respublikasının əməkdar iqtisadçısı, iqtisad elmləri doktoru, professor, AMEA-nın İqtisadiyyat İnstitutunun şöbə müdiri***

## "Muğanbank" 9 ayı mənfəətlə başa vurub

"Muğanbank" ASC 2015-ci ilin yanvar-sentyabr aylarını 1 milyon 810 min manat xalis mənfəət ilə başa vurub.

9 ayda Bankın cəmi gəlirləri 63 milyon 86 min manat, o cümlədən faiz gəlirləri 46 milyon 2015 min manat, qeyri-faiz gəlirləri isə 16 milyon 872 min manat təşkil edib.

Qeyd edək ki, "Muğanbank" bu ilin 1-ci rübündə 8 milyon 594 min manat, 2-ci rübündə isə 1 milyon 973 min manat zərər açıqlamışdı. Bank 3-cü rübdə vəziyyəti tərsinə çevirə bilib.

## "AccessBank"ın nəticələri sabitliyini təsdiqlədi

Azərbaycanda fəaliyyət göstərən iri banklardan biri olan "AccessBank" QSC mövcud ağır iqtisadi şəraitə müqavimətilə diqqəti çəkir. Güclü kapitala malik olan Bankın gəlirləri azalmayıb, əksinə artıb.

2015-ci ilin yanvar-sentyabr aylarında "AccessBank"ın cəmi gəlirləri 140 milyon 129 min 560 manat, o cümlədən faiz gəlirləri 133 milyon 374 min 960 manat, qeyri-faiz gəlirləri isə 6 milyon 754 min 600 manat təşkil edib.

"AccessBank" "Hesabların aparılması üzrə xidmətlərdən komisyon gəliri" üzrə güclü gəliri sayəsində qeyri-faiz gəlirləri üzrə zərər etməyib. Bu gəlir məzənnə dəyişməsi (devalvasiya) nəticəsində yaranmış 3 milyon 541 min manatlıq zərəri artıqlaması ilə bağlayıb.

"AccessBank" ötən ilin 9 ayında 132,3 milyon manat cəmi gəlir, o cümlədən 119,8 milyon manat faiz gəlirləri, 12,5 milyon manat qeyri-faiz gəlirləri əldə etmişdi.

Cari ilin 9 ayında "AccessBank"ın cəmi xərcləri 131 milyon 83 min 500 manat təşkil edib, o cümlədən bank 20 milyon 140 min 550 manat aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün ehtiyatların yaradılmasına ayırıb.

### 9 AYI MƏNFƏƏTLƏ BAŞA VURUB

Bu ilin yanvar-sentyabr aylarının yekununda "AccessBank"ın vergidən əvvəl mənfəəti 9 milyon 46 min manat olmuş və bu məbləğdən 2 milyon 187 min manat mənfəət vergisi ödənilib. Nəticədə də, Bankın 6 milyon 858 min 690 manat xalis mənfəəti qalıb.

### AKTİVLƏRİ ARTIB

Sentyabr ayının 30-na "AccessBank"ın cəmi aktivləri 1 milyard 93 milyon 890,95 min manat təşkil edib ki, bu da ötən ilin sonu ilə müqayisədə 3,7% çoxdur. Ötən ilin sonu ilə müqayisədə Bankın kredit portfeli isə 43,2 milyon manat və ya 5,5% azalaraq 778 milyon 294 min manat təşkil edib. Bu, kreditlər ilə bağlı qaydaların sərtləşdirilməsi və tələbin azalması ilə bağlıdır. Əksinə, Bankın nağd vəsaitlərində, Mərkəzi Banka qarşı tələblərində və başqa banklardakı müxbir hesablardakı vəsaitlərində artım qeydə alınıb.

### PROBLEMLİ KREDİTLƏR 4% ƏTRAFINDADIR

"AccessBank"da vaxtı keçmiş kreditlərin kredit portfelində xüsusi çəkisi cəmi 4,36% (33,9 milyon manat) təşkil edib.

30 sentyabr 2015-ci il tarixində "AccessBank"da depozitlər 254 milyon 829,36 min manat, o cümlədən əhalinin əmanətləri 164 milyon 608,88 min manat təşkil edib.

30.09.2015-ci il tarixinə "AccessBank"ın cəmi öhdəlikləri 926 milyon 600 min manat təşkil edib. Öhdəliklərin 76,6%-i xarici valyutada olmuşdur.

"AccessBank" QSC-nin nizamnamə kapitalı 152 milyon 267 min manatdan, cəmi kapitalı isə 167 milyon 290 min manatdan çoxdur. Bank 186 milyon 476 min manat məcmu kapitala malikdir. "AccessBank" Azərbaycanda kapitalına görə ən güclü banklardan biridir.

# Станция метро 'Низами' попала в пятерку самых красивых станций метро мира





**Издание "Вести Кавказа" опубликовало рейтинг самых красивых станций метро мира. В список также попала станция Бакинского метрополитена - "Низами".**

Станция метро "Бульвар Формоза" (Formosa Boulevard) в городе Гаосюн в Тайване отличается необычным оформлением из стеклянных панелей. Эта 4500-метровая работа считается самой большой работой из стекла в мире.

Яркую мозаику из сотен отдельных кусочков стекла создал художник Нарцисс Кволььята (Narcissus Quagliata).

Благодаря эффекту калейдоскопа эта станция метро стала излюбленным местом для фото новобрачных, а также известной туристической достопримечательностью.

На куполе 30-метрового диаметра и общей площадью 660 кв. м раскрываются 4 темы человеческой жизни. Это "Вода" - чрево жизни, "Земля" - процветание и экономический рост, "Свет" - творческий дух и "Огонь" - разрушение и возрождение, послание любви и терпимости.

Станция метро "Толедо" в итальянском Неаполе также является одним из красивейших мест благодаря работе "Световые панели". Помимо того, что это очень красивая станция метро, это также одна из самых глубоких станций в Неаполе.

Над интерьером одной из самых глубоких в мире станций метро работали испанский архитектор Оскар Тускетц Бланка и южноафриканский художник Уильям Кентридж.

Если взглянуть на потолок Центрального вокзала в Нью-Йорке, который внесен к Книгу рекордов Гиннесса как вокзал с самым большим количеством платформ, то вы будете поражены его красотой.

Здесь 44 платформы и 67 путей, которые располагаются на двух подземных уровнях - 41 путь на верхнем уровне и 26 на нижнем.

Зал ожидания выполнен в роскошном стиле с арочными окнами и колоннами и напоминает сводчатый храм. Эта станция является одним из символов Нью-Йорка и туристической достопримечательностью.

Архитектурно станция московского метро "Комсомольская" - апофеоз сталинского ампира, отличающегося грандиозностью, помпезностью, сочетанием элементов классицизма, ампира и московского барокко.

В северном торце станции — лестница, ведущая в небольшой купольный аванзал. В куполе свода, украшенного золотой смальтой, изображена красная пятиконечная звезда с расходящимися во все стороны золотыми лучами.

Длинный и широкий коридор выводит из аванзала к эскалаторному тоннелю. Эскалаторный тоннель в свою очередь выводит в наземный вестибюль, общий для обеих станций узла. У этого вестибюля восьмиугольный объем под большим куполом. Купол украшен лепниной и фигурными барельефами трубящих горнистов.

Триумф советского народа в Великой Отечественной войне — ведущая тема архитектуры интерьеров станции. Величие этой патриотической темы отражено в грандиозном размахе пространственного построения подземного зала, в богатстве декоративного убранства, в яркости ее цветового и светового решения.

Потолок станции украшен восемью мозаичными панно из смальты и ценных камней. Они являются визуализацией речи И. В. Сталина, произнесенной на параде 7 ноября 1941 г.

Станция "Низами" - последняя станция первой очереди Бакинского метрополитена. Здесь начало линии метрополитена в Нагорную часть Баку, где расположены важные административные и научные центры.

"Низами" - станция глубокого заложения, оборудована эскалаторами. Расположена она рядом с памятником Освобожденной азербайджанке. Облицовка внешней части вестибюля станции, как бы встроенного в жилой квартал, окаймлена внизу карнизом из легких алюминиевых листов. В оформлении внутренней части станции применили лучшие образцы национальной архитектуры.

Станция "Низами", названная так в честь великого азербайджанского поэта Низами Гянджеви, - одна из самых красивых станций Бакинского метрополитена. Возведена она по проекту народного архитектора СССР академика М. Усейнова. Подземный дворец украшают мозаичный портрет Низами и панно на темы из его произведений.





# Разрабатывается план зонирования Баку

Государственный комитет по градостроительству и архитектуре Азербайджана подписал контракт с Бакинским государственным проектным институтом о создании плана зонирования и использования всей территории Баку.

Об этом сказал журналистам в среду заместитель председателя Государственного комитета по градостроительству и архитектуре Азербайджана Довлетхан Довлетханов.

"Этот план будет охватывать не только всю территорию Баку, а от Алята до Сумгайыта, площадью в 213 тысяч гектаров", - сказал он.

По словам Довлетханова, в рамках плана регионального развития Большого Баку, Госкомитетом также разработан план зонирования центральных частей Баку, особенно привлекательных для туризма.

"План регионального развития Большого Баку затрагивает не только сам Баку, но и прилегающие к нему территории – города Сумгайыт и Хырдалан, и является скорее крупным стратегическим документом, который обеспечит единый подход к Абшеронскому полуострову в целом", - сказал он.

Ожидается, что к 2030 году прирост населения столицы составит 745 тысяч человек, а численность населения достигнет в целом 3,35 миллиона человек. Соответственно, ожидается удвоение жилого фонда – он достигнет 64,147 миллиона квадратных метров, и при этом обеспеченность жильем на одного человека составит по региону 25 квадратных метров общей площади против нынешних 17,3 квадратных метра.

Ориентировочно к 2030 году будет рекультивировано порядка 22 тысяч гектаров нефтепромысловых территорий столицы, большая часть которых будет отведена под лесопарковую зону. Предстоит озеленить еще не менее 34 тысяч гектаров, используемых ныне хозяйственными субъектами, или заброшенных территорий: здесь появятся парки, скверы. В процессе благоустройства этих территорий улично-дорожная сеть увеличится на сотни километров.



# Последние статистические данные по AGBank

***Основное направление деятельности ОАО AGBank, основанного в 1992 году, является финансирование промышленного и коммерческого секторов, улучшения корпоративного управления и создание системы профессионального обслуживания клиентов в Азербайджанской Республике.***

Согласно статистическим данным, с начала года по 1 октября, активы AGBank увеличились на 10% и достигли 558 480 000 манат, кредитный портфель вырос на 5% и сегодня равен 401 310 000 манат. Количество депозитных счетов превысило 4000.

Отметим, что на общем собрании акционеров AGBank, которое состоялось 18 сентября 2015 года, было принято решение о поэтапном увеличении Уставного Капитала Банка до 10.000.000 (десять миллионов) манат.

Напомним, что среди крупных акционеров ОАО AGBank присутствуют две крупные организации - Международная Финансовая Корпорация и Американский инвестиционный фонд ООО "Казимир Инвестмент", а также 8 Государственных учреждений, 12 коммерческих организаций, 43 физических лица, что в целом составляет 65 акционеров.

Согласно своей политике постоянного расширения спектра услуг, AGBank предлагает инновационные услуги "AGBank Форекс" и "Интернет-банкинг". AGBank, который придает особое внимание безопасности и защищенности своих систем, использовал самые современные и надежные устройства для внедрения услуги "Интернет-банкинг", отвечающей требованиям сегодняшнего дня и являющейся очень функциональной и удобной. Что касается финансового рынка "AGBank Форекс", то торги на ней ведутся 5 дней в неделю, 24 часа в день. Профессионалы банка предоставляют бесплатные курсы для новичков в сфере торговли на финансовых рынках.

Одним из приоритетных направлений для банка является расширение географии. Отметим, что в настоящее время, AGBank представлен 23 филиалами как в столице, так и в регионах (Агдаш, Гянджа, Баку, Сумгаите, Шемахе, Евлах, Барда) нашей страны. Для расширения охвата населения своими услугами, Банк продолжает внедрять свою стратегию и планирует открывать Сабаильский филиал в ближайшее время. Данный филиал по адресу г. Баку, Сабаильский район ул. Низами 130 предлагает 10 новых вакантных мест. Заинтересованные могут обращаться в AGBank.

# Azercell приняла участие на конференции по Устойчивому Развитию и Корпоративной Социальной Ответственности

Azercell Telecom - ведущий оператор мобильной связи Азербайджана принял участие на очередной престижной конференции. 1-я Азербайджанская конференция по устойчивому развитию и корпоративной социальной ответственности «Baku CSR Conference 2015» объединила широкий спектр ведущих компаний, правительственных и неправительственных организации Азербайджана, в числе которых также была компания Azercell. Целью конференции является проведение комплексной оценки текущей ситуации в стране, а также расширение диалога и сотрудничества между различными структурами, частными и неправительственными организациями для развития данной сферы. Помимо этого, на конференции был изучен опыт местных и зарубежных компаний в области корпоративной социальной ответственности, обсуждены основы для более эффективного участия частных компаний в социальных проекта в рамках своих КСО стратегий, а также тема формирования понятия корпоративной социальной ответственности среди гражданского общества и развития.

Вице-президент TeliaSonera по корпоративным коммуникациям Ульвии Гасанзаде выступила в роли модератора, а директор отдела Стратегического Партнерства и Управления Клиентскими Каналами компании Azercell Имран Багиров в роли докладчика на сессии по КСМ Политике ИКТ Компаний и их Социального Влияния. В своем выступлении Ульвия Гасанзаде указала на то, что сектор ИКТ является основным двигателем развития и инноваций во всем мире.

Со своей стороны Директор отдела Стратегического Партнерства и Управления Клиентскими Каналами компании Azercell Имран Багиров выступил по теме Вызовы и перспективы устойчивого развития, в рамках которого рассказал о Центре Инноваций и Предпринимательства Barama, о его проектах и результатах, а также пригласил частные компании к сотрудничеству для достижения устойчивого и инновационного развития.

Отметим, что с первых дней своей деятельности Azercell Telecom придает большое значение вопросам социальной ответственности. До сегодняшнего дня Компания поддержала тысячи социальных проектов в различных областях, включая образование, искусство, спорт, наука и техника и прилагала свои усилия для устойчивого развития. Среди успешных проектов в этой области можно отметить Детскую Горячую Линию, Центр Инноваций и Предпринимательства Barama, Мобильную Глазную Клинику и Мобильную Зубную Клинику, Зеленые Базовые Радио-Станции, Студенческие Стипендиальные Программы, Профессиональные тренинги и курсы английского языка для журналистов, различные мероприятия и конференции по корпоративной социальной ответственности и т.д. За 19 лет своего функционирования Azercell инвестировал 20 млн долларов США в реализацию социальных проектов.

# PASHA Bank внедряет новую платформу Oracle FLEXCUBE

Один из крупнейших банков Азербайджана - PASHA Bank – приступил к переходу на новую банковскую платформу Oracle FLEXCUBE. Данный шаг предпринят для модернизации бизнес-процессов в рамках расширения деятельности Банка в Азербайджане, Турции и Грузии.

По словам Председателя Правления PASHA Bank Талеха Кязымова, с каждым годом масштаб ведения бизнеса предпринимателями региона растет, ввиду чего Банк должен быть уверен в том, что сможет предоставить им необходимую поддержку для их дальнейшего развития.

«Мы выбрали решение Oracle ввиду того, что оно открывает нам доступ к передовым технологиям, которыми пользуются ведущие финансовые организации по всему миру. Данная банковская платформа, объединяющая в себе современные технологические наработки для банковского сектора, обеспечит гибкость принятия решений и оперативность наших бизнес-процессов в региональном масштабе. Уверен, что переход на новую банковскую систему позволит PASHA Bank еще гибче и быстрее реагировать на запросы клиентов, ведущих свою деятельность в рамках экономического треугольника «Азербайджан-Турция-Грузия»», - сказал Т.Кязымов.

Отметим, что Oracle FLEXCUBE является программным обеспечением, специально разработанным для финансовых учреждений. Данное ПО, включающее в себя основные банковские функции, функции интернет-доступа и пр., позволяет организации модернизировать ежедневный рабочий процесс.

# Azercell ilə Bakı Dövlət Universiteti arasında əməkdaşlıq memorandumu imzalandı



Ölkənin lider mobil operatoru Azercell Telekom-un Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi yeni maraqlı layihələr həyata keçirməkdə davam edir.

Oktyabrın 21-də Barama Mərkəzi bu dəfə ölkəmizin ən nüfuzlu ali təhsil ocaqlarından biri olan Bakı Dövlət Universiteti ilə əməkdaşlıq memorandumu imzalayıb. Bu məqsədlə təşkil olunan mərasimdə çıxış edən Azercell Telekom MMC-nin prezidenti Vahid Mürsəliyev bildirib ki, bu yeni əməkdaşlıq Universitet tələbələrinin texnoloji innovasiyalara yaxın olmasına və gələcəkdə uğurlu biznes qurmasına dəstək olaraq, Barama mərkəzində yeni uğurlu layihələrin həyata keçirilməsinə zəmin yaradacaq. Fəaliyyət göstərdiyi 19 il ərzində Azercell Telekom MMC-nin Azərbaycanda təhsilin inkişafına, təcrübəli kadrların yetişdirilməsinə hər zaman dəstək verdiyini söyləyən şirkət prezidenti Azercell-in bu yöndə fəaliyyətini bu gün də uğurla davam etdirdiyini vurğulayıb.

BDU-nun rektor Abel Məhərrəmov da bu memorandumun Azərbaycan təhsilinin inkişafına öz töhfəsini verəcəyinə və tələbələrin Azercell və Barama təcrübəsindən faydalanacağına inandığını bildirib.

2009-cu ildən fəaliyyətə başlayan Barama Mərkəzi ölkəmizdə yerli startap-ların üzə çıxmasına yardımçı olaraq, gənclər arasında həm texnoloji savadın, həm də sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsinə şərait yaradır. Mərkəz bazarda innovativ mühitin inkişaf etdirilməsi üçün bir sıra qlobal təşkilatlar, qurumlar və Qeyri Hökumət Təşkilatları ilə də əməkdaşlıq edir. Xatırladaq ki, bir müddət öncə ölkənin ən iri banklarından biri olan PAŞA Bank da Barama Mərkəzi çərçivəsində ölkədə gənc sahibkarlara dəstək olmaq məqsədi ilə Azercell-lə əməkdaşlıq etməyə başlamışdı.

Məlumat üçün bildirək ki, fəaliyyətdə olduğu müddət ərzində ölkədə peşəkar jurnalist kadrlarının inkişaf etdirilməsinə öz töhfəsini vermiş Azərbaycanın lider mobil operatoru Azercell Telekom ötən ilin may ayında Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin tələbələri üçün peşə təlimi təşkil edib. Təlimçi qismində Böyük Britaniyadan dəvət olunmuş beynəlxalq miqyaslı jurnalist Den Meyson iştirak edirdi.

Qeyd etmək yerinə düşərdi ki, Azercell ilə Azərbaycanın ali təhsil ocaqları arasında sıx əməkdaşlıq mövcuddur. Azercell Telekom öz fəaliyyəti boyunca daim gənclərin inkişafına yönələn layihələr həyata keçirir. Şirkətin elan etdiyi Tələbə Proqramı çərçivəsində Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan qabiliyyətli gənclərimiz Azercell-dən xüsusi təqaüd və şirkətin müxtəlif şöbələrində təcrübə keçmək imkanı qazanırlar.

Təhsilə və gənclərə yardım etmək bundan sonra da Azercell-in prioritet fəaliyyət sahəsi olacaqdır.

# 18 sığorta şirkətinin yığımları azalıb

***2015-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda toplanmış sığorta haqlarının məbləğinə görə, 1-ci yeri "Paşa Sığorta" şirkəti tutub.***

Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına əsasən, şirkət 9 ayda 48,25 milyon manat sığorta haqqı toplayıb. Sonrakı yerlərdə qərarlaşmış "Paşa Həyat Sığorta"nın yığımları 42,55 milyon manat, "Atəşgah Sığorta"nın yığımları isə 35,3 milyon manat olub. Sığorta yığımlarının məbləğinə görə, ilk beşliyi "Atəşgah Həyat Sığorta" (30,2 milyon manat) və "Azərsığorta" (29,3 milyon manat) şirkətləri tamamlayırlar. Ümumilikdə, bazarın 54,7%-i ilk beşlikdə təmsil olunan şirkətlərin payına (təxminən 185,6 milyon manat) düşür.

Ən az sığorta haqqı toplayanlar isə "Başak İnam" (849 min manat), "Amrah Sığorta" (666 min manat), "Azərqarant" (203 min manat), fəaliyyətini ötən ay bərpa etmiş "Çartis Azərbaycan" (62 min manat) və "Günay Sığorta" (56 min manat) şirkətləri olub. Bu şirkətlərin ümumi göstəricisi 1,84 milyon manat olub və ümumi sığorta yığımlarının 0,5%-ni təşkil edib.

Lisenziyası ötən ilin dekabr ayında dayandırılmış, bu ilin iyun ayında isə ləğv edilmiş "Era-Trans" sığorta şirkəti təbii olaraq sığorta haqqı toplamayıb.

Ümumilikdə, 27 sığorta şirkətindən 2-də sığorta haqlarının məbləği 40 milyon manatdan çox, 2 şirkətdə 30 milyon manatdan çox, 2 şirkətdə 20 milyon manatdan çox, 5 şirkətdə 10 milyon manatdan çox, 4 şirkətdə 5-10 milyon manat arasında, 6 şirkətdə 1 milyon manatdan 5 milyon manata qədər, 2 şirkətdə 500 min manatdan 1 milyon manata qədər, 4 şirkətdə isə 500 min manatdan da aşağıdır. Şirkətlərdən 9-da sığorta haqlarının artımı, 18-də isə azalması baş verib.

9 ayda sığorta ödənişlərinin məbləğinə görə də 1-ci yerdə "PAŞA Sığorta" şirkətidir – 21,7 milyon manat. Sonrakı yerləri tutmuş "Qala Həyat Sığorta"nın ödənişləri 16,3 milyon manat, "Atəşgah Sığorta"nın ödənişləri isə 11,5 milyon manat təşkil edib. Ödənişlərin məbləğinə görə, ilk 5-liyi "Atəşgah Həyat Sığorta" (10,3 milyon manat) və "Azərsığorta" (9,3 milyon manat) şirkətləri tamamlayır. Ümumilikdə, ödənişlərin 54,3%-i ilk beşlikdə təmsil olunan şirkətlərin payına (təxminən 69,2 milyon manat) düşür.

Ən az ödəniş edən şirkətlər isə "Era-Trans" (179 min manat), "Günay Sığorta" (82 min manat), "Çartis Azərbaycan" (53 min manat), "İpək Yolu Sığorta" (40 min manat) və "Azərqarant" (2 min manat manat) olub. Bu şirkətlərin ümumi göstəricisi 356 min manat olub ki, bu da ödənişlərin 0,3%-ni təşkil edir.

Ümumilikdə, 27 sığorta şirkətindən 1-də ödənişlərin məbləği 20 milyon manatdan çox, 3-də 10 milyon manatdan çox, 6-da 5 milyon manatdan çox, 9-da 1 milyon manatdan 5 milyon manata qədər, 2 şirkətdə 500 min manatdan 1 milyon manata qədər, 2 şirkətdə 100 min manatdan 500 min manata qədər, 4 şirkətdə isə 100 min manatdan da aşağıdır. Şirkətlərdən 15-də sığorta ödənişlərinin artımı, 12-də isə azalması baş verib.



# İNNOVASİYA innovasiya iqtisadiyyatının əsas elementidir

*Son onilliklərdə dünya ölkələrində innovasiyanın inkişafı nəticəsində yeni bir elm sahəsi - innovasiya iqtisadiyyatı yaranmışdır. Ölkə iqtisadiyyatının gələcək inkişafı bilavasitə innovasiya iqtisadiyyatı ilə bağlı olduğundan, heç olmasa onun konturları ilə tanış olmaq lazımdır.*

*Milli dilimizdə qeyd edilən sahədə az tədqiqat aparıldığını və yazılı mənbələrin kasadlığını nəzərə alaraq bu yazıları oxucuların diqqətinə çatdırmağı qərara aldıq.*

*Bu silsilə məqalələrdə innovasiya iqtisadiyyatının bir elm kimi predmeti, vəzifələri və funksiyaları, onun təşəkkülü və inkişafı haqqında məlumat verilmişdir. Burada həmçinin, innovasiya iqtisadiyyatının meyarları, infrastrukturu, texnoloji ukladı, Milli İnnovasiya Sisteminin xüsusiyyətləri öz əksini tapmışdır.*

*Müəllif bu yazıların elmi səviyyəsinin yüksəldilməsində xüsusi əməkləri olan - kitabın elmi redaktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Z.Ə.Səmədzadəyə və kitabın rəyçisi, professor T.N.Əliyevə öz dərin hörmət və ehtiramını bildirir.*



**A.H.TAĞIYEV,**
**Sumqayıt Dövlət Universitetinin "Menecment" kafedrasının müdiri, professor**



*(əvvəli ötən sayımızda)*

**I mərhələ - ilkin iqtisadi səmərənin qiymətləndirilməsi**

Bu mərhələdə istehsal proqramının reallaşdırılması üçün plan-sifarişin verilməsi gəlir. Əgər plan-sifarişlərin sayı çoxdursa, onda yeniliyi və reallaşdırılma səmərəsi ən böyük olan innovasiya seçilir və istehsalda eksperiment aparılması üçün tövsiyə edilir. Elmi təşkilatların xüsusi və universitet sektorlarının ekspertlərinin cəlb edilməsi ilə böyük həcmdə proqnozlaşdırma işləri və dünya elmi-texniki sferasının vəziyyətinin monitorinqi yerinə yetirilir. Bu, innovasiya prosesini şərtləndirmək və erkən mərhələlərdə səmərəli "artım nöqtələri"ni təyin etmək məqsədi ilə edilir. Məsələn, Yaponiyada Xarici Ticarət və Sənaye Nazirliyi mütəmadi olaraq ətraflı 10 illik "Bəsirət" (əvvəlcədən görmə) çap etdirirlər və bunlar müəyyən dəqiqliklə baş verir. ABŞ-da Müdafiə Nazirliyi tərkibində Perspektiv Layihələr Tədqiqatı Agentliyi fəaliyyət göstərir. Bu təşkilatın vəzifəsi innovasiya sferasında baş verən hadisələrin "nəbzində əlini saxlamaqdır", istər bu universitetdə, istər dövlət laboratoriyasında, istərsə də xüsusi sektorda baş versin, yeni, hətta çox riskli olan potensial faydalı ideyaların axtarışını edirlər və onların reallaşdırılması üçün şərait yaradırlar.

**II mərhələ - gözlənilən iqtisadi səmərənin alınması**

Seçilmiş innovasiyaların gözlənilən iqtisadi səmərəsi keçirilən tədqiqat eksperimenti gedişində isbat olunur və tətbiqi iqtisadi səmərəlilik əsaslandırılır.

Texniki-texnoloji innovasiyaların əsas ümumiləşdirici iqtisadi səmərə göstəricisi iqtisadi səmərəlilik göstəricisidir. Burada səmərəlilik göstəriciləri əks olunur: əmək məhsuldarlığı, fond verimi, material və enerji tutumu, istehsalın texniki səviyyəsinin göstəriciləri, məhsulun keyfiyyəti və s.

**İnnovasiyaların reallaşdırılmasından əmələ gələn iqtisadi səmərə**

İnnovasiyanın reallaşdırılmasından alınan iqtisadi səmərə göstəricisi nəticənin qiymət dəyərinin innovasiya prosesində həyata keçirilməsi dövründə edilən xərclərin qiymət dəyərlərindən artıqlığı kimi təyin edilir.

İqtisadi səmərənin hesablanmasında ilk növbədə xalq təsərrüfatı yanaşmasına riayət edilməlidir, yəni texniki-texnoloji innovasiyaların yalnız tətbiq edilməsi yeri üzrə nəticələr deyil, onlarla bağlı sahələrin ölkənin iqtisadi inkişafının son göstəricilərinə təsir mövqeyi də nəzərə alınmalıdır.

Sonra təsərrüfatdaxili iqtisadi səmərə təkrar emal tsiklinin ayrı-ayrı mərhələlərində hesablanır: elmi-tədqiqat və təcrübə-konstruktor işləri (ETTKİ), mənimsəmə, innovasiyaların istehsalı və istifadəsi. Bu, müəyyən innovasiya məhsullarının ayrı-ayrı elmi-tədqiqat təşkilatlarında, istehsalçı və istehlakçı müəssisələrdə səmərəliliyini qiymətləndirməyə imkan verəcək.

İqtisadi səmərə (G) nəticələr (məhsullar, iş, xidmətlər, P - dəyər ifadəsində) və onları əldə etmək üçün çəkilən xərclərin ümumi dəyəri (Z) arasında məlum hesablama dövründə olan fərqi kimi müəyyən edilir:

$$G=R-Z$$

Çəkilən xərc dedikdə, səmərəyə nail olmaq üçün bütün resurs xərclərinin (və ya onların ayrı-ayrı növlərinin) məcmusu nəzərdə tutulur. Milli iqtisadiyyat miqyasında sərflər kapital qoyuluşları, dövriyyə fondları və canlı əmək (əmək haqqı) məcmusudur. Sahə, birlik, müəssisələr üçün sərflər maya dəyəri və ya istehsal fondu kimi çıxış edir.

İqtisadi səmərənin hesablanmasında zaman amili nəzərə alınmalıdır. Bunu müxtəlif vaxtlarda sərfləri və nəticələri vahid zaman anına, yəni hesablama ilinə gətirməklə edirlər.

Təşkilat innovasiyalarının səmərəliliyini qiymətləndirdikdə onları iki qrupa ayırır:

1) müəyyən əlavə bir vaxtda sərflər tələb edən innovasiyalar (kapital qoyuluşu);

2) əlavə investisiyalar tələb etməyən innnovasiyalar.

Təşkilat yeniliklərinin birinci qrupunun səmərəliliyi texniki-texnoloji kimi hesablanır.

Məsrəfsiz innovasiyaların səmərəliliyinin qiymətləndirilməsi belə təşkilat innovasiyalarının həyata keçirilməsi ilə bağlı cari sərflərin hesablanması əsasında həyata keçirilir.

III mərhələ - tətbiqdən səmərənin alınması

Bu:

- müəssisə;
- alimlər;
- elmi kollektivlər, o cümlədən yeni texnika və ya məhsulun tətbiqindən alınan vəsaitlərdə ifadə olunur.

XX əsrin II yarısı qabaqcıl dövlətlərin innovasiya inkişafında əsl kəsirdən çıxma (irəliləmə) olmuşdur. Müharibədən sonrakı Yaponiya iki resursa malik idi: möhkəm millət və təbii səliqəlik. Bu ölkə mürəkkəb məişət texnikasının istehsalında yüksək müvəffəqiyyətə nail olmuşdur. Çinin müvəffəqiyyəti son 15 ildə əsasən ucuz, yaxşı təşkil olunmuş işçi qüvvəsi, əlverişli iqlim və qərb texnologiyaları ilə vüsət alan istehsalların yaradılması ilə izah olunur.

**5. İnnovasiya iqtisadiyyatının texnoloji ukladı**

Texnoloji uklad iqtisadiyyatın inkişafının vektorunu təyin edən mürəkkəb sosial-iqtisadi, bir-birilə bağlı texniki-texnoloji istehsalların, texnoloji zəncirlərin əmələ gəlməsidir. Bu anlayışın əmələ gəlməsi rus alimi N.D.Kondratyevin adı ilə bağlıdır. O, Kerenskinin Müvəqqəti hökumətində məsul vəzifə tutmuşdur, sonra isə Moskvanın məşhur Konyunktur İnstitutuna başçılıq etmişdir. Kapitalizmin tarixini öyrənərək N.D.Kondratyev böyük, uzunluğu 50-55 illə ölçülən iqtisadi tsikllərin (dalğaların) mövcudluğu ideyasına gəlmişdir. Bu tsikllər üçün məhsuldar qüvvələrin müəyyən inkişaf səviyyəsi xarakterikdir ("texnoloji uklad"). Bir qayda olaraq, belə tsikllər böhranla bitir və sonra məhsuldar qüvvələrin daha yüksək inkişaf səviyyəsinə keçid dövrü gəlir.

*(davamı var)*

# 1,5 ton Gədəbəy qızılı satıb



Azərbaycanda qızıl istehsalçısı Anglo Asian Mining plc 2015-ci ilin 9 ayında 54103 unsiya (1,68 ton) qızıl istehsal edib. Şirkət ötən ilin 9 ayında 43232 unsiya qızıl hasil etmişdi (artım 25%).

Şirkətin saytında xəbər verilir ki, bu ilin üçüncü rübündə şirkət 18165 unsiya (563 kq) qızıl istehsal edib.

Şirkət yanvar-sentyabr aylarında hər unsiyası orta hesabla 1179 dollardan 48165 unsiya (1,5 ton) qızıl satıb.

Anglo Asian Mining plc 2015-ci ildə qızıl istehsalının 70-75 min unsiya (təxminən 2,2 ton) civarında olacağını proqnozlaşdırır. Şirkət ötən il 60285 unsiya qızıl istehsal etmişdi.

Anglo Asian Mining plc gümüş və mis hasilatı ilə də məşğul olur.

# Makedoniya TANAP və TAP vasitəsilə daşınacaq enerji resurslarından yararlanmaq istəyir

Makedoniyanın paytaxtı Skopye şəhərinin tarixi "Kursumli An" karvansaray-mehmanxanasında Makedoniya ilə 19 ölkə və dörd beynəlxalq təşkilat arasında əlaqələrin qurulmasının 20 illiyi münasibətilə yubiley tədbiri keçirilib.

Azərbaycan Türkiyədəki səfirliyindən Trend-ə verilən məlumata görə, yubiley tədbirində Azərbaycan, Səudiyyə Ərəbistanı, Rumıniya, Moldova, Hindistan, Estoniya, Antiqua və Barbuda, İran, Liviya, Ukrayna, Sinqapur, Qazaxıstan, Monqolustan, Litva, ABŞ, Yunanıstan, Avstraliya, İsrail və Omanın nümayəndələri, eləcə də NATO, Avropa Şurası, ATƏT və Ümumdünya Turizm Təşkilatının təmsilçiləri iştirak ediblər. Tədbirə, həmçinin digər ölkə və beynəlxalq təşkilatların Skopye şəhərindəki nümayəndəliklərinin təmsilçiləri, Makedoniya hökumətinin rəsmiləri, biznes və media dairələrinin, eləcə də müxtəlif dərnəklərin mənsubları qatılıblar.

Tədbir zamanı Azərbaycanın Türkiyədə, eyni zamanda, Makedoniyada akkreditə olunmuş səfirliyi tərəfindən tərtib edilmiş və Azərbaycan-Makedoniya bayraqları ilə bəzədilmiş guşədə ölkəmizin turizm potensialı, mətbəxi, xalçaçılıq sənəti, musiqi alətləri və digər sənətkarlıq nümunələrini təqdim edən, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edən kitablar, broşür və xəritələr nümayiş etdirilməklə yanaşı, tədbir iştirakçılarına paylanıb.

Tədbir zamanı müxtəlif ölkələrin guşələrinə baxış keçirən Makedoniyanın xarici işlər naziri Nikola Poposki Azərbaycan guşəsini də ziyarət edib və nümayiş etdirilən materiallarla tanış olub. Nazir Səfirliyin nümayəndəsi ilə söhbətində Makedoniyanın Azərbaycan kimi ağrılı tarixə malik olduğunu qeyd edib və bu bənzər tarixin hər iki ölkəni bir-birinə daha da yaxınlaşdırdığını ifadə edib. N.Poposki, həmçinin Makedoniyanın Azərbaycanla müxtəlif sahələr üzrə əməkdaşlığa böyük önəm verdiyini, xüsusilə də TANAP və TAP layihələri tamamlandıqdan sonra ölkəsinin bu layihələr vasitəsilə daşınacaq enerji resurslarından yararlanmaq niyyətini dilə gətirib.

# Layihə üzrə kəmər xəttinin inşasına başlanılıb

"Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG)" layihəsi çərçivəsində kəmər xəttinin inşasına artıq başlanılıb. Layihə üzrə işlər Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyuna aparılır. Azərbaycanda boru kəməri marşrutunun ilk 200 kilometr boyu torpaq sahələrinin əldə olunması başa çatıb və hazırda marşrutun qalan hissəsində torpaq sahələrinin əldə olunması həyata keçirilir. Gürcüstanda 1-ci və 2-ci kompressor stansiyasının və təzyiqə nəzarət, tənzimləmə qurğusunun tikintisi isə davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə energetika naziri Natiq Əliyevin "Respublika" qəzetində dərc olunan məqaləsində məlumat verilib. Bildirilib ki, "Cənub" qaz dəhlizi layihəsinin əsas elementlərindən olan "Şahdəniz Mərhələ 2" və "Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG)" layihələri üzrə işlər qrafikdə nəzərdə tutulan vaxtdan xeyli irəlidədir. Hazırda layihə üzrə işlər sürətlə aparılır, ölkədəki bütün tikinti-quraşdırma və istehsalat sahələrində, o cümlədən Səngəçal terminalı, Bakı yaxınlığındakı tikinti sahəsi, Dərin Özüllər Zavodu və boru kəməri marşrutu boyunca iri-miqyaslı işlər davam etdirilir, platformanın üst modulları və dayaq blokları istehsalat sahələrində qurulur.

"Şahdəniz Mərhələ 2" və "Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi (CQBKG)" layihələri üzrə ölkədə 20 mindən çox insan tikinti işlərinə cəlb olunub ki, onların 85 faizindən çoxu Azərbaycan vətəndaşlarıdır.

# Elmə həsr olunmuş həyat

## Bu il oktyabr ayının 25-də görkəmli iqtisadçı-alim, iqtisad elmləri doktoru, professor Rauf Mirzə oğlu Cəbiyevin 80 yaşı tamam olur



Fitri istedada, zəngin və peşəkar təcrübəyə malik olan professor R.M.Cəbiyev daima elmi axtarışlar aparır, iqtisadiyyatın bir sıra məsələlərinin həllinə dəlillərlə yanaşaraq, təsərrüfat təcrübəsində onların reallaşdırılmasına imkan yaradır.

Rauf Cəbiyevin keçdiyi yol çətin, maneələr ilə dolu, lakin daima yüksələn, inadlı yoldur. Onu hərəkətə gətirən gərgin əmək, daimi elmi axtarışlar, nikbinlik, seçdiyi yola inam və etiqaddır.

**Hələ gənc yaşlarından anasını itirən Rauf Cəbiyev 1945-ci ildən - 10 yaşından Bakı Biskvit fabrikində fəhlə kimi işləməyə başlayır. Sonra Stalin adına mədəniyyət evində kinomexanik köməkçisi, daha sonra Kənd Təsərrüfatı Nazirliyi Sistemində çertyoyçu vəzifəsində çalışır. O 171 №-li məktəbin 7-ci sinifini bitirdikdən sonra Maliyyə-kredit texnikumuna daxil olur və 1954-cü ildə oranı əla qiymətlərlə bitirir. Sonralar K.Marks adına Xalq Təsərrüfatı İnstitutuna daxil olub. Lakin elə birinci kursdan sonra Sovet Ordusu sıralarına çağırılıb. Sovet Ordusu xidmətindən sonra o, institutu bitirib, 1967-ci ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun aspiranturasına daxil olub və 1974-cü ildə namizədlik dissertasiyası müdafiə edib. 1991-ci ildə Rauf Cəbiyev doktorluq dissertasiyasını müdafiə edib və 1993-cü ildə ona professor adı verilib.**

edildi. Bundan sonra 1974-cü ildə R.M.Cəbiyevə dissertasiyanı müdafiə etməyə icazə verildi. Elə həmin 1974-cü ildə SSRİ Nazirlər Sovetinin nəzdindəki Ali Attestasiya Komissiyası onun iqtisad elmləri namizədi diplomunu təsdiq və təqdim etdi. Lakin Rauf müəllim bununla kifayətlənmədi və doktorluq dissertasiyası üzərində işləməyə başladı. Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda işləməklə o, uzaq və yaxın ölkələrdə 5 monoqrafiya, kitab və yüzə yaxın məqalə çap etmişdir. O, bir çox beynəlxalq və respublika konfranslarının işində iştirak etmişdir. Bütün bunlar ona doktorluq işi yazmağa güclü təkan vermişdir. 1976-cı ildə onun "Azərbaycan SSR-in sənayesində təsərrüfat hesablı münasibətlərinin inkişafı və təkmilləşdirilməsi" mövzusunda doktorluq işi təsdiq edilmişdir. Həmin iş 1980-ci ildə Respublika Elmlər Akademiyasının İqtisadiyyat İnstitutuna müzakirəyə verilmişdir. Lakin müzakirənin vaxtı çox uzadılırdı. Həmin illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin belə bir göstərişi var idi ki, rəhbər işçilərə, vəzifə tutduğu vaxt namizədlik və doktorluq dissertasiyasının müdafiəsinə icazə verilmirdi. Buna görə də həmin vaxt o, Dövlət Plan Komitəsində şöbə müdiri vəzifəsində işləyərkən, köhnə iş yerinə, Elmi-tədqiqat iqtisad institutuna köçürülməsini xahiş etdi. Onun xahişi təmin edildi. Lakin

1945-ci ildən bu günə kimi o, təhsilini işlə uyğunlaşdırmaqla Orjonikidze rayon maliyyə şöbəsində müfəttiş, baş müfəttiş, şöbə rəisi, Avtoyollar İdarəsinin plan-maliyyə şöbəsinin rəisi, Başmontajxüsusitikinti idarəsində iqtisadi tədqiqatlar sektorunun müdiri, Respublika Dövlət Plan Komitəsinin Elmi-tədqiqat iqtisadiyyat institutunda bölmə müdiri və şöbə müdiri, Respublika Nazirlər Soveti nəzdində Qiymət Komitəsi şöbəsinin rəis müavini, Azərbaycan Dövlət Plan Komitəsində şöbə müdiri, Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunda sənayenin iqtisadiyyatı kafedrasının müdiri, İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Mərkəzində şöbə müdiri vəzifələrində çalışmışdır. Hazırda R.Cəbiyev Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışır və AMEA-nın Elmi İnnovasiyalar Mərkəzində yarımştatda işləyir.

Lakin, R.Cəbiyevin keçdiyi yol çətin və tikanlı olmuşdur. Buna misal kimi namizədlik dissertasiyasının müdafiəsini gətirmək olar. Bu iş 7 il ərzində başa gəlmişdir. Hələ 1960-cı ildə R.M.Cəbiyev aspiranturaya qəbul olunduğu zaman Xalq Təsərrüfatı İnstitutunda müdafiəyə böyük iddia.

**Beləliklə, Rauf Cəbiyev aspiranturaya qəbul olunmuşdur və onun dissertasiya mövzusu - "Mənfəət və onun yeni təsərrüfatçılıq şəraitində stimullaşdırıcı rolu" təsdiq edilmişdir. Qeyd etmək lazımdır ki, dissertasiya mövzusu seçilən vaxt bir sıra yoldaşlar ona bu mövzunun təsdiqini məsləhət görmürdülər, ona görə ki, mənfəət kapitalist kateqoriyasıdır. Dissertasiyanın mövzusunu rentabelliyə dəyiş ki, müdafiə edə biləsən, ona tövsiyə verirdilər. Lakin o, təkid edirdi ki, mənfəət nəticədə müəssisələrin fəaliyyətində əsas qiymətləndirmə göstəricisi kimi olacaqdır. Nəhayət, xeyli debatdan, mübahisədən, izahlardan sonra mövzunu ilk variantda təsdiq etdilər. Sovet İttifaqında belə mövzuda bu ilk dissertasiya işi idi. Lakin iş hazır olandan sonra yenə də onu müdafiəyə buraxmadılar.**

Sovet İttifaqı Kommunist Partiyası MK və SSRİ Nazirlər Sovetinin Plenumundan sonra, mənfəətin müəssisələrin fəaliyyətində əsas göstərici kimi olması təsdiq

Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda Rauf müəllimin doktorluq dissertasiyasının müzakirəsinə tələsmirdilər. Beləliklə, müzakirə 5 il də uzandı. Nəhayət, ondan nə tələb etdikləri məlum olduğundan sonra o məcburiyyət qarşısında qalıb, öz işini müdafiə üçün Ukrayna Elmlər Akademiyasının Sənaye İnstitutuna müzakirəyə verməli oldu. R.Cəbiyevin çoxsaylı əsərlərini görən Ukrayna Sənaye İnstitutunun direktoru, akademik N.Q.Çumaçenko R.Cəbiyevdən soruşdu: "Siz hələ də doktor deyilsiniz?". O, cavab verir ki, yox. "Təəssüf edirəm", - deyə akademik cavab verir. R.M.Cəbiyevin işini qəbul edəndən sonra onu İnstitut Şurası 3 ay müddətində müzakirə etdi və müdafiəyə buraxıldı. Müdafiədən 20 gün sonra sənədlərinin SSRİ Ali Attestasiya Komissiyasına göndərilməsindən sonra ona iqtisad elmləri doktoru adı alimlik dərəcəsi verilmişdir. Bu, 1991-ci ilə təsadüf edir. Lakin başabəla alimlərin, məmurların günahı ucbatından 10 il itirilmiş idi. 1993-cü ildə Rauf Cəbiyevə professor elmi adı verilmişdir.

R.M.Cəbiyevin elmi potensialının formalaşmasında bir sıra görkəmli alimlərin böyük rolu olmuşdur: L.İ.Abalkin, P.Q.Buniç, A.X.Popov, N.Q.Çumaçenko, V.N.Vontolovskiy, Q.Y.Kiperman, A.M.Omarov, O.D.Proçenko, N.Q.Şumov, Q.A.Krayuxin, Y.Q.Bersutskiy, M.D.Ayzenşteyin, L.Ş.Qaft, V.B.Şubik, Q.V.Moiseyev, Y.Y.Yekaterinoslavskiy, D.A.Çernikov, S.Q.Qaluza, F.E.Poklonskiy və başqaları.

Professor R.Cəbiyevin qeyd etdiyi kimi, elmdə əsas şərt ondan ibarətdir ki, alimlərin əməyi son nəticəyə görə qiymətləndirilməlidir. Əgər texniki elmlər bu ölçülərə asanlıqla nail olurlarsa, iqtisad elmi bir çox halda yox. Buna görə də iqtisadçı alim daha çox, işləməlidir, respublikanın iqtisadiyyatında baş verən prosesləri diqqətlə təhlil etməlidir, "zəif nöqtələr və bütün təsərrüfatçılıq sisteminin təkmilləşdirilməsi üçün təkliflər verməlidir. Bunun üçün hər şeydən əvvəl, nəzəri cəhətdən əsaslandırılmış problemlər işləyib hazırlamaq lazımdır. Həmin problemə dair xeyli kitab və məqalə oxumaqla, sonra isə, İqtisadi İnkişaf Nazirliyinin, Maliyyə Nazirliyinin, Milli Bankın, şirkət və firmaların, müəssisələrin xeyli faktiki materiallarını toplamaq və təhlil etmək, daha sonda isə bütün bunları ümumiləşdirmək, nəticə çıxarmaq lazımdır. İqtisadçı alimin əməyinin əsas kriterilərindən də biri nüfuzlu xarici jurnallarda çap olunması, patent və qrantların alınması, beynəlxalq konfranslarda məruzələrlə çıxış etməsidir".

Qeyd etmək lazımdır ki, bu istiqamətdə professor R.Cəbiyev böyük müvəffəqiyyətlər əldə etmişdir. Xeyli sayda nəşr olunmuş elmi əsərləri buna sübutdur. Həmin əsərlər respublikamızda və xarici ölkələrdə nəşr olunmuşdur. Onların bir çoxu nazirliklər, baş idarələr, müəssisələr, şirkətlər və firmalar tərəfindən bəyənilmişdir.

**Hələ SSRİ dağılmamışdan qabaq professor R.Cəbiyevin qələmindən çıxan bir sıra məqalələr nüfuzlu jurnallarda çap olunmuşdur.**

Bundan başqa, Rauf Cəbiyev 2003-cü ildə Dünya Bankının xətti ilə keçirilən müsabiqədə "Azərbaycanda yoxsulluq və onun azalması" mövzusu üzrə I yer qazanmışdır və mükafata layiq görülmüşdür. 2005-ci ildə o, "Neft və yoxsulluq" müsabiqəsində də iştirak etmişdir. Müsabiqə Azərbaycanın neft sənayesinin informasiya mərkəzi tərəfindən həyata keçirilmişdir və R.M.Cəbiyev burada da mükafatlandırılmışdır.

2007-ci ildə Azərbaycanda Rusiya Federasiyasının səfirliyi tərəfindən keçirilən müsabiqədə - "Rus-Azərbaycan münasibətləri: stabillik və qarşılıqlı maraqlar" - professor R.Cəbiyev birinci yeri tutmuşdur. Elə həmin ildə o, İNTAS xətti ilə "Elmin texnologiyasının və innovasiyasının inkişafı" mövzusu üzrə qrantı udmuşdur.

50 illik elmi, elmi-pedaqoji və praktiki fəaliyyətində professor R.M.Cəbiyevin 19 monoqrafiya, kitab və 360-dan artıq məqaləsi yaxın və uzaq xarici ölkələrdə nəşr olunmuşdur. Axırıncı kitabı - "İnnovasiya sferasında Azərbaycanın Dövlət siyasəti" 2014-cü ildə Berlində nəşr olunmuşdur.

**Hələ Respublika Dövlət Plan Komitəsinin planlaşdırma və iqtisadi stimullaşdırılmasının yeni metodlarının tətbiqi şöbəsinin müdiri vəzifəsində işləyərkən R.Cəbiyevin rəhbərliyi və bilavasitə iştirakı ilə respublikamızın müəssisələrində yeni göstəriciləri: normativ-təmiz məhsul, təmiz məhsul, təsdiq edilmiş əmsallara uyğun əmək haqqının artımı bağlanmış müqavilələrə uyğun olaraq və verilmiş sifariş-naryada görə planın yerinə yetirilməsi və sairə tətbiq olunmuşdur.**

Professor R.Cəbiyevin rəhbərliyi 80-90-cı illərdə ölkədə təsərrüfatçılığın yeni, daha təkmilləşmiş forma və metodlarının aprobasiyası üzrə aparılan eksperiment, təsərrüfat hesabı, özünümaliyyələşdirmə və öz xərcini ödəmə respublika iqtisadiyyatının yüksəlməsinə böyük təsir göstərmişdir.

R.M.Cəbiyevin rəhbərliyi və iştirakı ilə bazar iqtisadiyyatının əsasları üzrə metodiki və praktik materiallar, həmçinin 7 böyük bölmə və 52 alt bölmədən ibarət bazar iqtisadiyyatına keçid Proqramı işlənib hazırlanmışdır. Bu materiallar Dövlət Plan Komitəsinə göndərilmişdir. Həmçinin, 10 oktyabr 1991-ci ildə "Vışka" qəzetində və 14 noyabr 1992-ci ildə "Xalq" qəzetində çap olunmuşdur.

Respublikada ilk dəfə olaraq professor R.Cəbiyevin rəhbərliyi ilə Birinci Proqrama uyğun olaraq Dövlət mülkiyyətinin özəlləşdirilməsi üzrə tədqiqatlar aparılmışdır və Respublika Hökumətinə təqdim edilmişdir. Bu məsələlər ardıcıl olaraq 1991-ci il avqustun 11-də "Vışka" və 1996-cı il dekabrın 3-də "Panorama" qəzetlərində dərc olunmuşdur. Xüsusən də, "Panorama" qəzetindəki məqalə ✍ "Özəlləşdirmə nə üçün bir yerdə dayanır?" ictimaiyyət arasında böyük rezonansa səbəb olmuşdur.

**Professor R.Cəbiyevin Azərbaycan Respublikasında yoxsulluğun azaldılması istiqamətində elmi axtarışları diqqəti cəlb edir. Həmin illərdə ölkə iqtisadiyyatında qazanılan pozitiv nəticələrə baxmayaraq, yoxsulluq probleminin aradan qaldırılması həlb də kifayət deyildi. Bununla əlaqədar olaraq alimin "Azərbaycanda iqtisadi inkişaf və yoxsulluq problemləri" işi Dünya Bankı tərəfindən ən yaxşı iş hesab edilmiş və mükafatlandırılmışdır.**

İlk dəfə olaraq 1990-cı ildə öz elmi işlərində professor R.Cəbiyev sovet monopolizmini tənqid etmişdir. Onun bu haqda məqaləsi 12 may 1990-cı ildə "Bakinskiy raboçiy" qəzetində dərc olunmuşdur. Məqalə birmənalı qarşılanmamışdır. O vaxt ölkədə bütün məhsulların bölüşdürülməsi ilə Dövlət Plan Komitəsi və SSRİ Dövlət Təchizat Komitəsi məşğul olduğu üçün həmin illərdə monopolizm o qədər də hiss olunmurdu. Bununla belə, monopolist-müəssisələr, ölkə üzrə onların sayı təxminən 2 min idi, öz istehlakçılarına məhsulların qiymətlərinin artırılması, keyfiyyətinin pisləşməsi ilə istehsal həcminin aşağı salınması, məhsul təchizatı ilə bağlı müqavilə bağlanmasını rədd etmək, bir məhsulun başqa məhsulla əvəz edilməsi, yüklənməmiş məhsulun pulunun qabaqcadan ödənilməsi və s. ilə təsir göstərə bilərdilər.

R.Cəbiyev öz elmi işində sahibkarların fəaliyyətində normativ-hüquqi aktların təkmilləşdirilməsinə böyük yer ayırır. Bu problem üzrə alimin bir sıra təklifləri qəbul edilmiş və normativ aktlara daxil olunmuşdur. Bu problem üzrə alim 2003-cü ildə Bakıda keçirilən beynəlxalq elmi-praktik konfransın plenar iclasında geniş məruzə ilə çıxış etmişdir.

**R.M.Cəbiyevin qələmindən çıxan məqalələrə əmək haqqının normallaşdırılması, əmək məhsuldarlığı, maddi mükafatlandırma fondu və s. aid etmək olar. Qeyd etmək lazımdır ki, 80-ci illərdə respublikanın bir sıra müəssisələrində əmək haqqı fondunun və əmək məhsuldarlığının yüksəldilməsi arasında əmək haqqının artırılması hesabına kəskin tərəddüd müşayiət olunmuşdur. Bu, onu göstərir ki, əmək haqqı əməyin son nəticəsi nəzərə alınmadan verilirdi. Həmin materiallar Rauf Cəbiyevin bir sıra məqalələrində, qəzet və jurnalların səhifələrində dərc olunmuşdur. Sonralar isə onlar "Təsərrüfat mexanizminin istehsalın son nəticələrinin yaxşılaşdırılmasına yönəldilməsi" monoqrafiyasının bölməsinə daxil edilmişdir.**

R.Cəbiyevin elmi işlərində Azərbaycan və Rusiya, Ukrayna və Belarusiya arasındakı iqtisadi əlaqələr də mühüm yer tutur. Bu problem üzrə onun yazdığı məqalələr nəinki ölkədə, həm də xaricdə çap olunmuşdur.

Rauf Cəbiyevin elmi-praktiki fəaliyyəti 1999-cu ildə "Kim kimdir?" ensiklopediyasında, 2004-cü ildə "Persona" və "Elm" nəşriyyatlarında və 2013-cü ildə "Böyük Sovet Ensiklopediyası"nda öz əksini tapmışdır.

Professor R.Cəbiyev Azərbaycan EA İqtisadiyyat İnstitutu Elmi Şurasının üzvü, bir sıra jurnal və qəzetlərin redaksiya heyətinin üzvü, Beynəlxalq İnformasiya agentliyinin iqtisadi məsələlər üzrə müşaviridir.

Bütün yuxarıda göstərilənlər professor Rauf Cəbiyevin iqtisadiyyatda bu və ya digər məsələlərin həllində yüksək professional alim kimi, zəhmətkeş, tükənməz enerjiyə malik, inadkar və prinsipial olmasını xarakterizə edir. Eyni zamanda, alim insanların mənəviyyatının xüsusi əhəmiyyət kəsb etdiyini təsdiq edir. Saflıq, düzlük, sədaqət kimi keyfiyyətlər isə onun üçün mənəviyyatın yüksək etalonudur.

Buna görə də o, dostlarına və yoldaşlarına münasibətdə sədaqətli, vəfalı, həmişə öz sözünü deyəndir. O, öz ailəsi – həyat yoldaşı və iki qızı ilə fəxr edir, qızları ali təhsil almışlar, onlar üç nəvə ilə Rauf müəllimi baba etmişlər.

**80 illik yubileyi ərəfəsində professor Rauf Cəbiyev bu gün də tükənməz enerjiyə, gücə malikdir, çox işləyir, 20-ci kitabını yazır, hansı ki, Azərbaycanın müstəqilliyinin 25 illiyinə və ümummilli lider Heydər Əliyevin parlaq xatirəsinə həsr edilmişdir. Bir sözlə, professor Rauf Cəbiyevin əməksevərliyinin sərhədi yoxdur. Yubilyarı təbrik edərək, ona cansağlığı, ailə səadəti, ruhən əhəngdarlıq, tükənməz enerji və optimizm, böyük yaradıcılıq müvəffəqiyyətləri arzulayırıq.**

***R.S.Qrinberq,***
***Rusiya EA-nın İqtisadiyyat İnstitutunun direktoru, REA-nın müxbir üzvü, i.e.d., professor***
***V.N.Şimov,***
***Belarusiya Dövlət İqtisad Universitetinin rektoru, i.e.d., professor***
***Ziyad Səmədzadə,***
***Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, akademik***

# Avtomobil idxalı 2 dəfə azalıb



*Əvvəlki illərdə Azərbaycana hər ay 7-8 min avtomobil gətirildiyi halda, son aylar gətirilən avtomobillərin sayı 2 min ədədə çatmır. Bu, əhalinin avtomobil almadığına, rəsmi distribüter və dilerlərin də müvafiq olaraq avtomobil satışlarının dəfələrlə azaldığına işarə edir.*

2015-ci ilin yanvar-sentyabr aylarında (9 ayda) Azərbaycana xaricdən cəmi 22 min 915 ədəd nəqliyyat vasitəsi idxal olunub. Bu say ötən ilin eyni dövrü ilə müqayisədə 25 min 69 ədəd və ya 52,2% azdır. Ötən ilin 9 ayı ərzində Azərbaycana 47 min 984 ədəd nəqliyyat vasitəsi idxal olunmuşdu.

2015-ci ilin yanvar-sentyabr ayları ərzində 733 ədəd sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi (avtobuslar), 20 min 386 ədəd minik avtomobili və digər motorlu nəqliyyat vasitələri, 1 584 ədəd yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi və 212 ədəd xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsi idxal olunmuşdur.

### SENTYABRDA CÜZİ ARTIM VAR

2015-ci ilin yanvar ayında ölkəmizə 4090 ədəd, fevral ayında 3421 ədəd, martda 2524 ədəd, apreldə 2855 ədəd, mayda 2605 ədəd, iyunda 2145 ədəd, iyulda 1836 ədəd, avqustda 1671 ədəd, sentyabrda 1768 ədəd nəqliyyat vasitəsi idxal olunmuşdur.

### CƏMİ 1565 ƏDƏD MİNİK AVTOMOBİLİ GƏTİRİLİB

Minik avtomobillərinin idxalında vəziyyət daha pisdir, bu, avtomobil biznesində tənəzzülün dərinləşdiyinə işarə edir. Belə ki, 2015-ci ilin yanvar-sentyabr aylarında 2014-cü ilin eyni dövrü ilə müqayisədə minik avtomobillərinin idxalı 23 min 110 ədəd və ya 53,1% azalaraq 20 min 386 ədədə düşüb.

2015-ci ilin yanvar ayında 3870 ədəd, fevral ayında 3161 ədəd, mart ayında 2225 ədəd, apreldə 2484 ədəd, mayda 2172 ədəd, iyunda 1833 ədəd, iyul ayında 1600 ədəd, avqust ayında 1476 ədəd, sentyabr ayında isə 1565 ədəd minik avtomobili idxal olunub.

### NƏ ÜÇÜN AZALIR?

Ekspertlər bildirirlər ki, avtomobil idxalının azalması Avro 4 standartına keçid, kreditlərin sərtləşdirilməsi, aksiz vergisinin dərəcələrinin artırılması və əhalinin gəlirlərinin azalması ilə bağlıdır.

Ölkəmizə 2012-ci ildə 101 255 ədəd, 2013-cü ildə isə 104 min 385, 2014-cü ildə 63 min 368 ədəd avtomobil idxal olunmuşdur. Bu il avtomobil idxalının ötən illə müqayisədə təxminən 2 dəfə azalaraq 30 min ədəd civarında olacağı gözlənilir.

# Mənzil bazarında qiymətlər cüzi ucuzlaşıb



*2015-ci ilin III rübündə Bakının mənzil bazarında qiymətlər 1,4% ucuzlaşıb. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib.*

Məlumata görə, 2015-ci ilin III rübündə ilkin daşınmaz əmlak bazarında qiymət artımı 0,1% təşkil edib.

Hesabat dövründə təkrar daşınmaz əmlak bazarında qiymətləri 1,4% azalıb.

Xəbər verildiyi kimi, 2015-ci ilin yanvar-sentyabr aylarında istismara verilən mənzillərin ümumi sahəsi 1 mln. 327,4 min kvadratmetr təşkil edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 9% azdır. Cari ilin sentyabr ayında 157,9 min kvadratmetr mənzil istismara verilib.

# Dövlət Statistika Komitəsi əsas makroiqtisadi göstəriciləri açıqlayıb

Oktyabrın 19-da Dövlət Statistika Komitəsində kütləvi informasiya vasitələri ilə 2015-ci ilin doqquz ayında ölkənin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirildi. Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov "Ümumdünya Statistika Günü" ilə əlaqədar tədbir iştirakçılarına geniş məlumat verərək bildirdi ki, Azərbaycan Respublikası "Ümumdünya Statistika Günü"nün qeyd olunmasına xüsusi önəm verir. Məhz bunun nəticəsidir ki, BMT-nin Baş Assambleyasının qəbul etdiyi qətnaməyə həmmüəllif kimi qoşulmuşdur. Qətnamə və BMT-nin Baş Katibi cənab Pan Gi Munun dünya ölkələrinin başçılarına, o cümlədən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti nəzərə alınaraq "Ümumdünya Statistika Günü"nun qeyd olunması ilə bağlı Azərbaycanda silsilə tədbirlər həyata keçirilir. Bununla yanaşı, statistika elminin nailiyyətlərinin, iqtisadi-statistik təhlillərin, mühüm statistik göstəricilərin və onların hesablanma metodologiyalarının, statistikaya dair beynəlxalq aləmdə baş verən yeniliklərin geniş ictimaiyyətə çatdırılması məqsədilə təsis edilmiş "Statistika xəbərləri" elmi-praktiki jurnalının ilk nömrəsi işıq üzü görmüş və kütləvi informasiya nümayəndələrinə təqdim olunmuşdur. Jurnalda "Dayanıqlı inkişafı təmin edən siyasət", "Demoqrafiyanın statistik göstəriciləri: təhlillər və proqnozlar", "Siyasi araşdırmalarda və təbliğat fəaliyyətində statistikanın rolu", "Müşahidə olunmayan iqtisadiyyatın rəsmi statistikada qiymətləndirilməsi" və s. başlıqlı məqalələr yer almışdır. Xüsusilə burada Azərbaycanda ÜDM-də müşahidə olunmayan iqtisadiyyatın ("kölgə iqtisadiyyatı") statistik rəqəmlərdə ifadəsi diqqətəlayiqdir.

Tədbirdə Aparatın Məlumatların yayılması şöbəsinin müdiri Rafael Süleymanov çıxış edərək, 2015-ci ilin doqquz ayında ölkənin sosial-iqtisadi inkişafının yekunları haqqında danışdı. O, qeyd etdi ki, cari ilin doqquz ayı ərzində ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 40,7 milyard manatlıq və ya ötən ilin müvafiq dövründəkindən 3,7 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Bildirildi ki, bu ilin yanvar-sentyabr aylarında əsas kapitala 11,8 milyard manat məbləğində vəsait yönəldilib. R.Süleymanov bu ilin doqquz ayında ölkədə yaradılmış yeni iş yerlərinin sayının 87,9 minə, o cümlədən daimi iş yerlərinin sayının 67,6 minə çatdığını bildirdi. Eyni zamanda, ölkənin iqtisadi və sosial inkişafının yekunları ilə bağlı digər statistik göstəriciləri tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli də öz çıxışında Azərbaycan statistikasının tarixi, bu günü və inkişaf perspektivləri haqqında danışmış, statistikanın sosial-iqtisadi siyasətin formalaşdırılmasında rolu ilə bağlı məlumatların ictimaiyyətə dolğun şəkildə çatdırılmasında peşəkar jurnalist yaradıcılığını stimullaşdırmaq üçün Dövlət Statistika Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birgə "Daha təkmil statistika - daha yaxşı həyat" mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərini elan etdi. Qaliblər pul mükafatı və diplomlarla təltif edildilər. Sonda Dövlət Statistika Komitəsinin bir qrup işçisi də Dövlət Statistika Komitəsinin fəxri fərmanı ilə təltif olundu.

*MƏTANƏT*

**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**

| Göstəricinin adı | 2015-ci ilin yanvar-sentyabr ayları faktiki, milyon manat | 2015-ci ilin yanvar- sentyabr ayları 2014-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | Məlumat üçün 2014-cü ilin yanvar-sentyabr ayları 2013-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| **Ümumi daxili məhsul** | **40 678,4** | **103,7** | **102,5** |
| o cümlədən: qeyri-neft ÜDM | 27 969,9 | 106,4 | 106,0 |
| əhalinin hər nəfərinə düşən həcmi, manat | 4 275,2 | 102,5 | 101,2 |
| **Sənaye məhsulu** | **19 715,5** | **102,1** | **99,4** |
| o cümlədən qeyri-neft sənayesi | 5 633,8 | 110,2 | 106,0 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər** | **11 831,2** | **100,5** | **100,2** |
| o cümlədən tikinti-quraşdırma işlərinə | 8 760,2 | 106,0 | 108,5 |
| **Kənd təsərrüfatı məhsulu** | **4 813,0** | **106,7** | **96,3** |
| o cümlədən: bitkiçilik | 2 715,9 | 110,4 | 91,0 |
| heyvandarlıq | 2 097,1 | 102,5 | 103,0 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **166,1** | **100,6** | **102,1** |
| o cümlədən qeyri-neft yüklərinin daşınması | 119,6 | 101,8 | 103,3 |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1 380,0** | **103,6** | **105,0** |
| **İnformasiya və rabitə xidmətləri** | **1 216,6** | **108,8** | **112,6** |
| **Pərakəndə ticarət dövriyyəsi** | **18 089,1** | **111,4** | **109,4** |
| **Əhaliyə göstərilən pullu xidmətlər** | **5 111,8** | **106,2** | **106,4** |
| **Dövlət büdcəsinin gəlirləri** | **10 667,0**[x)] | **86,0**[xx)] | **96,3**[xxx)] |
| **Dövlət büdcəsinin xərcləri** | **10 794,0**[x)] | **94,1**[xx)] | **98,7**[xxx)] |
| **Dövlət büdcəsinin kəsiri** | **127,0** | - | - |
| **Əhalinin gəlirləri** | **30 122,8** | **105,8** | **105,4** |
| **Əhalinin hər nəfərinə düşən gəlirlər, manat** | **3 165,9** | **104,5** | **104,0** |
| **Əhalinin banklardakı əmanətləri, 2015-ci il 01 sentyabr vəziyyətinə** | **7 320,3** | **104,7** | **114,8** |
| **Kredit qoyuluşları, 2015-ci il 01 sentyabr vəziyyətinə** | **20 095,8** | **116,1** | **119,7** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 333,6 | 142,1 | 122,8 |
| **Orta aylıq əmək haqqı, manat** | **460,1**[x)] | **104,4**[xx)] | **105,9**[xxx)] |
| **Yeni iş yerləri, vahid** | **87 876** | **87,8** | **122,0** |
| o cümlədən daimi | 67 589 | 82,2 | 133,9 |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **103,7** | **101,5** |
| **Əhalinin sayı, min nəfər, 2015-ci il 01 sentyabr vəziyyətinə** | **9 666.0** | **101.2** | **101.3** |
| Göstəricinin adı | 2015-ci ilin yanvar-sentyabr ayları faktiki, milyon manat | 2015-ci ilin yanvar- sentyabr ayları 2014-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | Məlumat üçün 2014-cü ilin yanvar-sentyabr ayları 2013-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
| Statistika məlumatı[1)] | | | |
| **Xarici ticarət dövriyyəsi, milyon ABŞ $** | **17 608,2**[x)] | **99,7**[3)] | **94,1**[4)] |
| o cümlədən: ixrac | 11 709,5[x)] | 98,6[3)] | 99,1[4)] |
| idxal | 5 898,7[x)] | 104,2[3)] | 78,3[4)] |
| Gömrük məlumatı[2)] | | | |
| **Xarici ticarət dövriyyəsi, milyon ABŞ $** | **14 082,2**[x)] | **100,0**[3)] | **90,3**[4)] |
| o cümlədən: ixrac | 8 183,5[x)] | 98,5[3)] | 95,7[4)] |
| ondan qeyri-neft ixracı | 1 078,9[x)] | 108,7[3)] | 97,2[4)] |
| idxal | 5 898,7[x)] | 104,2[3)] | 78,3[4)] |

Qeyd:
[1)] Ölkə sərhədini keçərək faktiki ixrac olunmuş, lakin hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməyən xam neft və təbii qazın həcmi və statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar daxil edilmişdir.
[2)] İxrac edilmiş xam neft və təbii qazın hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilən həcminə dair məlumatlar daxil edilmişdir.
[3)] 2015-ci ilin yanvar-avqust ayları 2014-cü ilin yanvar- avqust aylarına nisbətən, müqayisəli qiymətlərlə;
[4)] 2014-cü ilin yanvar- avqust ayları 2013-cü ilin yanvar- avqust aylarına nisbətən, müqayisəli qiymətlərlə;
[x)] 2015-ci ilin yanvar- avqust ayları;
[xx)] 2015-ci ilin yanvar- avqust ayları 2014-cü ilin yanvar- avqust aylarına nisbətən;
[xxx)] 2014-cü ilin yanvar- avqust ayları 2013-cü ilin yanvar- avqust aylarına nisbətən.

# Sığorta bazarı 8% artıb

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycandakı 27 sığorta şirkətinin xəttilə 339,3 milyon manat sığorta haqqı toplanıb. Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına əsasən, bu, 2014-cü ilin eyni dövrünə nisbətən 8% çoxdur.

Xatırladaq ki, bu ilin yanvar-avqust aylarında sığorta bazarı 10,4 faiz artmış, Azərbaycandakı 27 sığorta şirkətinin xətti ilə 312,84 milyon manat sığorta haqqı toplanmışdı. Beləliklə, sentyabrda sığorta bazarında artım ləngiməyə başlayıb.

9 ay ərzində sığorta şirkətlərinin həyata keçirdiyi ödənişlər isə 127,4 milyon manat təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9,5% çoxdur.

Hesabat dövründə sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 37,6 manat ödəniş edilib. Bu rəqəm 2014-cü ilin yanvar-sentyabr aylarında 37,1 manat olub.




**Həyat sığortası bazarında yığım 16%, ödəniş 45% artıb**

2015-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 26,3%-i və yaxud 89,1 milyon manatı həyat sığortasının payına düşüb. 2014-cü ilin eyni dövrü ilə müqayisədə həyat sığortası bazarı 16% böyüyüb.

Həyat sığortasındakı yığımların 57%-i və yaxud 50,8 milyon manatı həyatın yaşam sığortasının, 30,5%-i və yaxud 27,15 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, 11%-i və yaxud 9,85 milyon manatı həyatın ölüm halından sığortasının, 1,1%-i və ya 991 min manatı əmək qabiliyyətinin sığortasının, cəmi 0,4%-i və ya 330 min manatı isə sağalmaz xəstəliklərdən sığortanın payına düşüb.

9 ay ərzində həyat sığortası üzrə həyata keçirilmiş ödənişlərin məbləği 34,2 milyon manat təşkil edib. Bu da ümumi ödənişlərin 26,8%-ni təşkil etməklə, 2014-cü ilin eyni dövrünə nisbətən 45,1% çoxdur.

Həyat sığortası üzrə ödənişlərin 89,6%-i və yaxud 30,6 milyon manatı həyatın yaşam sığortasının, 5,4%-i və yaxud 1,8 milyon manatı istehsalatda bədbəxt hadisələrdən sığortanın, 5%-i və yaxud 1,7 milyon manatı həyatın ölüm halından sığortasının, cəmi 13,7 min manatı isə sağalmaz xəstəliklərdən sığortanın payına düşüb.

Hesabat dövründə həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqının müqabilində 38,3 manat ödəniş həyata keçirilib. 2014-cü ilin yanvar-sentyabr aylarında bu rəqəm 30,6 manat olub.

**Qeyri-həyat sığortası bazarında yığım 5,4%, ödəniş isə 0,5% artıb**

2015-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 250,2 milyon manatı və ya 73,7%-i qeyri-həyat sığortasının payına düşüb. 2014-cü ilin eyni dövrünə nisbətən qeyri-həyat sığortası bazarı 5,4% böyüyüb.

Qeyri-həyat sığortası üzrə yığımların 23,3%-i və ya 58,3 milyon manatı avtomobillərin icbari sığortasının, 20,3%-i və ya 50,8 milyon manatı tibbi sığortanın, 9,6%-i və ya 23,9 milyon manatı əmlakın yanğından və digər risklərdən sığortasının, 9,2%-i və ya 23 milyon manatı kasko sığortasının, 8,8%-i və ya 22 milyon manatı daşınmaz əmlakın icbari sığortasının, 28,8%-i və ya 72,2 milyon manatı isə digər qeyri-həyat sığortası növlərinin payına düşüb.

9 ay ərzində sığorta ödənişlərinin 73,2%-ni və ya 93,3 milyon manatını qeyri-həyat sığortası təşkil edib. Bu da 2014-cü ilin eyni dövrü ilə müqayisədə 0,5% çoxdur.

Qeyri-həyat sığortası üzrə ödənişlərin 39,8%-i və ya 37,1 milyon manatı tibbi sığortanın, 26,2%-i və ya 24,5 milyon manatı avtomobillərin icbari sığortasının, 19,8%-i və ya 18,4 milyon manatı kasko sığortasının, qalan 14,2%-i və ya 13,3 milyon manatı isə digər qeyri-həyat sığortası növlərinin payına düşüb.

Hesabat dövründə qeyri-həyat sığortası bazarında toplanmış hər 100 manat sığorta haqqının 37,3 manatı ödəniş edilib. 2014-cü ilin ilk 9 ayında bu rəqəm 39,1 manat olub.

**Sığorta bazarının 62%-i könüllü formalaşıb**

2015-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda toplanmış sığorta haqlarının 62,3%-i və ya 211,3 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Bu, ötən ilin eyni dövrüylə müqayisədə 3,5% çoxdur.

İcbarı sığorta növlərində yığım isə 128 milyon manat və ya bazarın 37,7%-ni təşkil edib. Ötən ilin eyni dövrünə nisbətən icbari sığorta bazarı 16,3% böyüyüb.

9 ayda ümumi ödənişin 74,5%-i və ya 94,9 milyon manatı könüllü sığorta növlərinin payına düşüb. Könüllü sığorta üzrə ödəniş ötən ilin eyni dövrünə nisbətən 10,5% artıb.

İcbari sığorta növləri üzrə ödəniş isə 32,5 milyon manat və ya ümumi bazarın 25,5%-ni təşkil edib. Bu, ötən ilin eyni dövrünə nisbətən 6,7% çoxdur.

Hesabat dövründə könüllü sığortadan toplanmış hər 100 manat sığorta haqqı müqabilində 44,9 manat ödəniş həyata keçirilib. 2014-cü ilin eyni dövründə bu rəqəm 42,1 manat olub. İcbarı sığortadan toplanmış hər 100 manat üzrə ödəniş isə 27,7 manatdan 25,4 manata düşüb.

**Kasko sığortasında yığım 17%, ödəniş 11% azalıb**

2015-ci ilin yanvar-sentyabr aylarında sığorta növləri arasında ən ciddi artım su nəqliyyatı vasitələrinin sığortasında qeydə alınıb. Azərbaycan Sığortaçılar Assosiasiyasının məlumatına görə, bu növ sığortadan toplanan sığorta haqqı 4,2 dəfə artaraq 2,6 milyon manat təşkil edib. Bundan başqa, kənd təsərrüfatı heyvanlarının sığortasında yığım 3 dəfə artaraq 1,2 milyon manat, kreditlərin sığortasında isə 2,2 dəfə artaraq 603 min manat olub.

Sığorta haqlarının məbləği həyatın yaşam sığortasında 28,3% artaraq 50,8 milyon manat, sağalmaz xəstəliklərdən sığortada 5,5% artaraq 330 min manat, səfər sığortasında 6% artaraq 1,7 milyon manat, əmlakın yanğından və digər risklərdən sığortasında 4% artaraq 23,9 milyon manat, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin könüllü sığortasında 42,7% artaraq 1 milyon manat, istehsalatda bədbəxt hadisələrdən sığortada 11,1% artaraq 27,1 milyon manat, daşınmaz əmlakın icbari sığortasında 64,1% artaraq 22 milyon manat, avtomobillərin icbari sığortasında isə 13,6% artaraq 58,3 milyon manat manat təşkil edib.

9 ay ərzində sığorta növləri arasında ən ciddi azalma isə ipoteka sığortalarında qeydə alınıb. Bu növ sığortadan daxilolmaların məbləği 100% azalıb. Bundan başqa, pul və pul sənədlərinin saxtalaşdırılmasından sığortada yığım 87,1% azalaraq 4 min manata, yük daşıyanın mülki məsuliyyətinin sığortasında isə 62,5% azalaraq 1000 manata düşüb.

Sığorta haqlarının məbləği həyatın ölüm halından sığortasında 21,4% azalaraq 9,8 milyon manat, fərdi qəza və xəstəlik sığortasında 22,1% azalaraq 6,7 milyon manat, tibbi sığortada 0,1% azalaraq 53,1 milyon manat, avtomobillərin könüllü sığortasında 17,1% azalaraq 23 milyon manat, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasında 7,5% azalaraq 286 min manat, sərnişinlərin icbari fərdi qəza sığortasında isə 11,9% azalaraq 104 min təşkil edib.

Bu ilin yanvar-sentyabr aylarında sığorta ödənişlərinin ən ciddi artımı isə kreditlərin sığortasında qeydə alınıb. Bu növ sığortada ödənişlər 31,9 dəfə artaraq 125 min manat təşkil edib. Bundan başqa, kənd təsərrüfatı bitkiləri məhsullarının sığortasında yığım 2,7 dəfə artaraq 61 min manat, ümumi mülki məsuliyyətin sığortasında isə 2,5 dəfə artaraq 254 min manat olub.

Sığorta ödənişlərinin məbləği həyatın ölüm halından sığortasında 2,2 dəfə artaraq 1,7 milyon manat, həyatın yaşam sığortasında 48,1% artaraq 30,6 milyon manat, tibbi sığortada 5,5% artaraq 37,1 milyon manat, avtomobillərin icbari sığortasında isə 16,1% artaraq 24,5 milyon manat təşkil edib.

9 ay ərzində sığorta ödənişlərinin ən çox azalması isə hava və su nəqliyyat vasitələrinin sığortasında, işçilərin dələduzluğu sığortasında və mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortasında qeydə alınıb. Bu növ sığortalar üzrə ödəniş 100% azalıb. Bundan başqa, sağalmaz xəstəliklərdən sığorta üzrə ödəniş 78,1% azalaraq 14 min manat, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortasında ödəniş 75,4% azalaraq 1000 manat olub.

Sığorta ödənişlərinin məbləği fərdi qəza və xəstəlik sığortasında 17,8% azalaraq 833 min manat, səfər sığortasında 29,1% azalaraq 139 min manat, əmlakın yanğından və digər risklərdən sığortasında 21,3% azalaraq 4,8 milyon manat, kasko sığortasında 10,5% azalaraq 18,4 milyon manat, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin könüllü sığortasında isə 70,1% azalaraq 132 min manat olub, istehsalatda bədbəxt hadisələrdən sığortada 9,2% artaraq 1,8 milyon manat, daşınmaz əmlakın icbari sığortasında isə 48,7% azalaraq 788 min manat təşkil edib.

*SEYMUR*

# SSL Azerspace-2 layihəsinin peyk sistemi təchizatçısı seçildi

Qərargahı Kaliforniyanın Palo Alto şəhərində yerləşən və Kanadanın MDA korporasiyasına məxsus, kommersiya peyklərinin aparıcı təchizatçısı olan "Space Systems/Loral" (SSL) şirkəti "Azərkosmos" ASC tərəfindən Azərbaycanın sayca üçüncü, təyinatına görə isə ikinci telekommunikasiya peykinin istehsalçısı seçilib. Dünyanın peyk xidmətləri üzrə aparıcı şirkəti olan İntelsat ilə "Azərkosmos" ASC-nin uzunmüddətli razılaşmasına əsasən, 45° şərq uzunluğu orbital mövqeyində yerləşəcək Azerspace-2 Afrika, Avropa, Asiya və Yaxın Şərq regionlarını əhatə edəcək.



SSL şirkətinin Prezidenti Con Çelli (John Celli) "peyk operatorları ilə əməkdaşlıq sahəsində SSL-in böyük təcrübəsi var" deyə qeyd edib. **"Biz Azərkosmosla İntelsatın inkişaf hədəflərini dəstəkləyəcək bir peyk istehsal etməklə bu şirkətlərin birgə əməkdaşlıq layihəsinə öz töhfəmizi verməyi səbirsizliklə gözləyirik".**

Azerspace-2 Azərkosmosun sayca ikinci telekommunikasiya peyki olmaqla yanaşı, Azerspace-1-in əhatə zonasını genişləndirməklə Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrikada Böyük Səhranın cənub regionlarında ödənişli televiziya, hökumət strukturları üçün rabitə xidmətləri və şəbəkə xidmətlərinə artan tələbatı qarşılayacaq.

Bu peyk İntelsatın hazırda 45° şərq uzunluğu orbital mövqeyində yerləşən və Mərkəzi və Şərqi Avropa, Asiya-Sakit okean regionlarında ödənişli televiziya platformalarını tutumla təmin edən İntelsat 12 peykinin davamlılığını təmin edəcək. Azerspace-2, həmçinin Afrikada korporativ şəbəkə və dövlət qurumlarını peyk xidmətləri ilə təmin edəcək.

**"Bu yeni peyk Azərkosmosu regionda peyk tutumlarına artan tələbatı qarşılamaq üçün əlavə tutumla təmin edəcək və müştərilərimizə daha yüksək keyfiyyətli radio, televiziya və rabitə xidmətləri göstərməyimizə imkan yaradacaq. Biz dünyanın peyk sənayesinin aparıcı şirkətləri olan İntelsat və SSL ilə əməkdaşlıq etməyimizə məmnunuq"** deyə Azərkosmosun sədri Rəşad Nəbiyev bildirib.

**"Bu layihə hazırda peyk sənayesində peyk operatorları arasında əməkdaşlığın bariz nümunəsidir. SSL və Azərkosmosla əməkdaşlığımız bizə imkan verəcək ki, Mərkəzi Avropa və Asiyada müştərilərimizin məzmunun paylanmasına olan tələblərini qarşılayaq. Bu peyk, həmçinin Afrikadakı korporativ şəbəkələri biznesin qurulması və genişləndirilməsi üçün lazım olan genişzolaqlı rabitə ilə təmin edəcək"** İntelsatın Baş texniki direktoru Tyeri Qulemin (Thierry Guillemin) bildirib.

Azerspace-2 ABŞ-ın qərargahı Kaliforniyanın Palo Alto şəhərində yerləşən və MDA korporasiyasına məxsus olan SSL şirkəti tərəfindən dizayn və istehsal ediləcək. Müqavilə çərçivəsində Kanadanın Riçmond şəhərində yerləşən, qlobal kommunikasiya və informasiya şirkəti olan MDA korporasiyası Azərkosmosa Yer səthinin radarla müşahidəsinə dair bilik və təcrübənin ötürülməsini də təmin edəcək. Peykin dizaynı yüksək etibarlı SSL 1300 peyk platformasına əsaslanacaq ki, bu da öz növbəsində, çoxsaylı tətbiqlərdən və yüksək texnologiyalardan istifadə imkanları yaradır.

Azerspace-2 peyk layihəsi Kanadanın "Export Development Canada" ("EDC") ixrac-kredit agentliyi tərəfindən uzunmüddətli və güzəştli kredit xətti vasitəsilə maliyyələşdiriləcək. Peykin 2017-ci ildə orbitə buraxılması planlaşdırılır.

# *Azərbaycanda Rusiya istehsalı olan vertolyotların xidmət sahəsi olacaq*

Azərbaycan yüksək texnologiyalı istehsal və xidmət sahəsində Rusiya ilə ikitərəfli əməkdaşlığı genişləndirməyə hazırdır.

Burada perspektiv istiqamətlərdən biri helikopter istehsalı və onlara xidmətin təşkilidir.



Məlumata görə, Rusiyanın vertolyot istehsalçılarından biri Azərbaycanda öz istehsal və xidmət mərkəzini yaradacaqdır.

Qeyd edək ki, bir müddət əvvəl "Rusiya Helikopterləri" şirkəti Azərbaycanda istehsal sahəsini quracağını və burada Sovet və Rusiya istehsalı olan helikopterlərin modernləşdirilməsinin aparılacağını açıqlamışdı.

# *"AtaBank" ASC-dən yeni xidmət kanalı aktiv olundu*




Artıq Siz "AtaBank"-dan təqdim olunan onlayn məsləhətçi vasitəsi ilə istənilən sual, məsələ, təklif və rəylərinizlə bağlı fikirlərinizi yönəldə bilərsiniz. Bu, bankın məhsul və xidmətləri haqqında ümumi məlumat ala biləcəyiniz bir xidmət kanalıdır. Xidmətdən yararlanmaq üçün hər hansı bir proqramdan istifadəyə də ehtiyac yoxdur. Bankın iş rejiminə uyğun olaraq bu xidmət hər kəsə açıqdır.

Siz bunun üçün hər hansı bir məbləğ ödəmirsiniz, yerinizi dəyişmirsiniz və növbə üçün gözləməli olmursunuz.

"AtaBank"-ın onlayn məsləhətindən yararlanmaq üçün Siz sadəcə bankın www.atabank.com saytında müvafiq pəncərədə adınızı qeyd edirsiniz.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC Azərbaycanın ən böyük kommersiya strukturlarından biridir. Bu gün "AtaBank" ASC yüksək texnologiyalı universal bank olmaqdadır. Bank korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir. Bakıda və ölkənin müxtəlif regionlarında bankın 26 filial və şöbəsi fəaliyyət göstərir.

Bank xidmətləri barədə ətraflı məlumat üçün 136 Məlumat Mərkəzinə zəng edə, www.atabank.com saytına və ya Bankın rəsmi facebook səhifəsinə www.facebook.com/atabank daxil ola bilərsiniz.

# Reklamın anatomiyasına və substansional mexanizminə dair

Biliyi başqa insanlarla ünsiyyətdə ya bilavasitə, ya da rabitə kanalları – kitablar, mətbuat, radio, televiziya, internet və s. vasitəsi ilə almaq olar. Deyilən növ biliklərin daşıyıcısı olan bəzi xəbərlər reklam halını alır. Heç kimə sirr deyil ki, hazırda reklam bəzi hallarda zəhlətökən, təngəgətirən, bezikdirən milçəyə bənzəyir ki, bu zaman onu uzaqlaşdırmaq üçün "qolların" yorulur. İnsanlar jurnallarda parlaq müşayiət olunan mətinli illüstrasiyaları artıq görmək istəmirlər, qəzetlərdə, nəqliyyatda, küçə afişalarında rəngli elanlara etinasız yanaşırlar, televiziya kanallarında reklam gedən kimi pult vasitəsilə digər kanallara çevirirlər, «spam»dan (ing.spam – reklam və digər məlumatların kütləvi göndərilməsi) şikayət edirdər və s. Buna baxmayaraq, reklam həyatımıza o qədər daxil olmuşdur ki, müasir dünyanın mənzərəsini reklamsız təsəvvür etmək praktiki cəhətdən qeyri-mümkündür.

Əgər elm və mədəniyyətin nailiyyətləri, ixtiralar gizli saxlanılsaydı, müasir dünya daha yaxşı olardı. Onda reklam, çox güman ki, mövcud olmazdı. Nəyə görə? Sosial yönümlü reklamsız hər hansı səviyyədə seçkini necə təsəvvür edirsiniz?

Reklamın mahiyyətini izah etməzdən əvvəl onun haqqında müxtəlif peşə sahiblərinin sentimental fikirləri, düşüncələri ilə tanış olmaq maraqlıdır.

Polşalı satirik Henrik Yaqodzinskinin fikrincə, «Reklam ticarətin mühərrikidir: yüzlərlə insan hərəkət edir, bir nəfər ticarət edir».

Kanada kulturoloqu Marşall Maklyuen müasir dövrdə reklama fenomenal hadisə kimi yanaşır: «Reklam XX əsrin ən böyük incəsənətidir".

M.Maklyuenin reklam haqqında digər bir fikri də maraqlı səslənir: «Bütün reklamlar yaxşı xəbərlərdir».

Amerikalı huquqşünas və yazıçı Uilyam Orvil Duqlas reklamı daha da idealləşdirir: «Reklamda millətin idealları görünür».

Fin yazıçısı Martti Parni reklama bir qədər fərqli münasibət bildirir: «Reklam insanları ehtiyacları ödəməyə məcbur edən elə vasitədir ki, onun haqqında insanlar əvvəllər eşitməmişlər».




ABŞ-ın reklam biznesinin tanınmış xadimi Eldar Ştuff reklama şişirdilmiş tərif verir: "Reklam yazını, həqiqətən də, bütövlükdə yalan etməyi bacaran sənətdir".

Digər amerikalı satirik Uill Rocers reklamın əhəmiyyətini belə izah edir: «Bir reklam elanı qırx baş məqalədən üstündür».

İngilis publisisti Siril Nortkot Parkinson reklama bir qədər abstrakt yanaşır: «Heç bir reklam satılması mümkün olmayanı sata bilməz».

Fantastika janrı üzrə yazıçı Herbert C.Yells reklama qəribə tərif verir: «Reklam qanuniləşdirilmiş yalandır». Mütəxəssislər haqlı olaraq, reklamı "ticarətin mühərriki" adlandırırlar. Hələ vaxtı ilə ABŞ-ın ən varlı və nüfuzlu adamlarından biri hesab edilən C.Rokfeller demişdir: «…biznesdə iki şey var ki, onlara çəkilən xərclərdə heç bir qənaətə yol vermək olmaz. Bunlar reklam və sığortadır».

Corc Oruell reklamı obrazlı şəkildə, «Donuzları cəlb etməkdən ötrü çirkli su ilə ləyəni döyən çömçənin çıxardığı səs-küylə müqayisə edir».

Məşhur alman iqtisadçısı H.Şvalbe qeyd edirdi: «…əgər biz reklamı məcbur edirik ki, o bizə xidmət etsin, onda reklamın fenomenini dərk etmək vacibdir. Ən azı, biz bilməliyik ki, reklam özü nədir? Əgər biz ondan fayda götürmək məqsədilə istifadə ediriksə, necə olmalıdır? Maraqlı olardı ki, reklamın inkişaf tarixinə dair biz burada qısa arayış verək. Amma bu, o qədər də vacib deyil. Çünki geniş yayılmış və inanılmış, «reklam da bəşəriyyətin özü qədər yaşlıdır və qocadır» fikrinə diqqət yetirmək kifayətdir».

ABŞ-ın dəfn sənayesinin reklam sloqanı qeyri-adi səslənir: «Siz ölürsünüz, qalanını biz edirik». Reklam haqqında məşhur müddəalardan birində reklam təklif edir: «Məni al və xoşbəxt olacaqsan».

Reklam haqqında digər bir aforizmdə deyilir: «Pulu qorumaqdan ötrü reklamı məhdudlaşdırmaq (ixtisar etmək) vaxtı qorumaqdan ötrü saatı saxlamaqdır». Reklam hər hansı qanuni və qeyri-qanuni üsulla verilən informasiyadır.

Göründüyü kimi, müxtəlif peşə sahibləri reklama özünəməxsus paradiqmalardan yanaşırlar.

Reklam nədir? Onun hansı parametrləri mövcuddur? Ümumiyyətlə, iqtisadi ədəbiyyatlarda reklamın onlarla tərifi mövcuddur: Əgər reklamın anatomiyasına və antologiyasına müraciət etsək, görərik ki, o, çoxşaxəlidir. Hər şeydən əvvəl, «reklam» termininin etimologiyası, mənşəyi və kökü ilə tanış olmaq zəruridir. «Reklam» termini öz etimologiyasına görə latın sözü «reklamare» sözündən olub «qışqırmaq», «hay vermək», «çağırmaq», «cavab vermək» mənalarında işlədilir. Bəzi müəlliflər onun fransız sözü «reklamare» («qışqırmaq») anlayışından əmələ gəldiyini bildirirlər. Belə ki, qədim Yunanıstanda və qədim Romada xalqın toplaşdığı meydanlarda və digər yerlərdə yüksəkdən qışqırmaqla və ya xəbər verməklə elanlar bildirilirdi. Məhz «reklam» anlayışının kökü burdan götürülmüşdür.

Reklam sözünün lüğət vahidi bir sıra Qərbi Avropa dillərində saxlanılmış və fransız təsiri vasitəsilə əvvəl Rusiyada, sonra Azərbaycanda kök salmışdır. Alman dilində istifadə edilən «Werbung» anlayışı reklamın təsiredici funksiyasına diqqəti cəlb edir və çoxsaylı mənalar daşıyır: «təşviqat», «elçi göndərmə», «təngə gətirmə» və s. İngilis dilində XIX əsrin əvvəlində «Adversite» feli geniş istifadə olunmağa başladı. Oksford lüğətində qeyd edildiyi kimi, XV-XVI əsrlərdə «Adversite» feli hər hansı bir şeyin xəbər verilməsini, deməli, reklamın informasiya funksiyasını bildirirdi. Roman dilləri (fransız, italyan, ispan) «Publicite» (fransız sözü) anlayışına «Publicitad» (ispan sözü) reklam ünvanının kütləviliyini əlavə etdilər. Bütövlükdə, «reklam» anlayışı konkret fəaliyyət növünü, məhz reklam fəaliyyətini müəyyən edən termin kimi son olaraq XVIII əsrin ikinsi yarısında formalaşmışdır.

Hər şeydən əvvəl reklamın qanunvericilik bazası ilə tanış olaq.

*(davamı var)*

*F.M.Qarayev,*



# “Ümumdünya Statistika Günü” ilə əlaqədar tədbir keçirilib

BMT-nin Baş Məclisi tərəfindən 20 oktyabr tarixinin "Ümumdünya Statistika Günü" elan olunması ilə əlaqədar ayın 16-da Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Yasamal Rayon Statistika Şöbəsinin tədbiri keçirilib. Yasamal rayonunda fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin, KİV nümayəndələrinin iştirak etdiyi tədbirdə giriş nitqi ilə Yasamal Rayon Statistika Şöbəsinin rəisi Arif Əliyev çıxış etmişdir. Azərbaycanda statistikanın tarixi, əhəmiyyəti və inkişafından danışan şöbə rəisi 1994-cü ilin 8 fevral tarixində ümumilli lider H.Əliyev tərəfindən "Statistika haqqında" Azərbaycan Respublikasının Qanununun imzalanmasını milli statistika tariximizdə mühüm hadisə kimi qeyd etmişdir. O, öz çıxışını ulu öndər H.Əliyevin "Bizim Dövlət Statistika Komitəsi var, çox düzgün statistika aparır" məşhur kəlamı ilə bitirmişdir.

Daha sonra çıxış edən rayon statistika şöbəsinin aparıcı məsləhətçisi Tünzalə Məmmədova Dövlət Statistika Komitəsinin beynəlxalq əlaqələrindən, "Forvard Karqo" MMC-nin nümayəndəsi Əfqan Səftərov isə müəssisələrlə yerli statistika orqanlarının qarşılıqlı əlaqədə işləməsindən, rəsmi statistik məlumatların elektron formada təqdiminin əhəmiyyətindən danışmışdır.

*MƏTANƏT*

# "Baku Fashion Night" tədbirinə həsr edilmiş mətbuat konfransı keçirildi

Oktyabrın 18-də "Excelsior Hotel & Spa Baku" otelində "Baku Fashion Night" tədbirinə həsr edilmiş mətbuat konfransı keçirildi. Tədbirdə "Excelsior Hotel & Spa Baku" otelinin baş meneceri Turhan Poyraz, "FMS Models" məktəbinin rəhbəri Lyubov Quturova, Dizayner Fəxriyyə Xələfova, "İD FASHİON" kanalının baş prodüseri Vasil Klumçik, məşhur ispan dizayneri Cordi Dolman və başqaları iştirak etdilər.

"FMS Models" məktəbinin rəhbəri Lyubov Quturova bildirdi ki, "Baku Fashion Nights" layihəsi ildə iki dəfə: payız-qış və bahar-yay mövsümlərində keçirilir. Bu tədbir "FMS Models" model agentliyi, "Excelsior Hotel& Spa" oteli və "İD Fashion" telekanalı tərəfindən yaradılmış və təşkil olunmuşdur və artıq 4-cü dəfədir ki, keçirilir. Layihənin baş sponsoru "Mercedes Benz Auto Capital" şirkətidir.



Oktyabrın 16-dan 18-nə qədər "Excelsior Hotel & Spa Baku" otelində həm yerli, həm də xarici ölkə dizaynerlərinin nümayişləri baş tutmuşdur.

Layihədə xarici ölkə dizaynerləri iştirak etmişlər. Əsli Cekson uzun illər İngiltərədə yaşayıb. 2004-cü ildə Londonda "Texnologiya və geyimin dizaynı" ixtisası üzrə "İncəsənət Akademiyası"nı bitirdikdən sonra onun üçün Vivienne Westwood və Alexander Mcqueen kimi brendlərlə işləmək imkanı yarandı. 2010-cu ildə o, bir layihədə iştirak etmək üçün İstanbula gəldi. Bu şəhərə yenidən vurulan Əsli öz karyerasını, eyni zamanda, burada da davam etdirməyə qərar verdi.

Yaradıcısı və ideya ruhlandırıcısı dizayner Veronika Vero olan Ukraynanın VERMICHELLE brendi. VERMICHELLE gözəlliyə, keyfiyyətə və fərdiliyə qiymət verənlərə istiqamətlənmişdir. Brend fashion-sənayesi bazarını elə sürətlə ələ almışdır ki, onun yeni kolleksiyalarını hamı səbirsizliklə gözləyir.

Layihənin sonuncu günündə Milan, Paris və Barselona moda həftələrində iştirak edən məşhur ispan dizayneri Corco Dalmau öz kolleksiyasını təqdim etdi. Corco Dalmau dünyada ən qeyri-adi toy libaslarının yaradıcısıdır. Jordi Dalmau Novias Moda evi 2001-ci ildə Barselonada toy libaslarında rənglərə və xırda detallara xüsusi diqqət yetirməklə, ənənə ilə müasirliyi bacarıqla uyğunlaşdırmaqla bu sahədə yeni səviyyəyə yüksəlməyə hazır olan gənc və dinamik şirkət kimi təsis edildi. Corco Dalmuanun gəlinləri qeyri-adi nağıl personajlarını xatırladır.

Layihənin böyük perspektivləri var, hər dəfə ona yeni, daha çox tərəfdaş qatılır. Növbəti layihə 2016-cı il martın əvvəlində baş tutacaq. Gələcək planlar barədə "Baku Fashion Nights" komandası mətbuatda ən yaxın vaxtlarda məlumat verəcək.

*MƏTANƏT*

# "AtaBank"ın Yevlax filialının müştərisi 500 manat qazandı

"AtaBank" ASC-nin 10 mart 2015-ci il tarixindən start verdiyi "KartoManiya" ani stimullaşdırıcı lotereya kampaniyasında növbəti 500 manatlıq uduş "Yevlax" filialında qazanılmışdır. Kampaniyada iştirak edən Mingəçevir şəhərinin sakini İsmayılov Çingiz apardığı nağdsız əməliyyat vasitəsilə 16 lotereya kuponu almış və lotereya kuponlarından biri ona 500 manat məbləğində uduş gətirmişdir. Bundan başqa, Bankın "Monolit", "Gənclik", "Nizami", "Şəmkir", "Lənkəran", "Yevlax", "Paytaxt" və "Bakı" filiallarında keçirilmiş uduş kampaniyasında iştirak edən lotereya kuponları sahibləri müxtəlif məbləğdə pul mükafatları qazanaraq qalib olublar. Keçən ildən fərqli olaraq "AtaBank" ASC kartları ilə ödəniş edən və çəkləri təqdim edən kart sahiblərinə hər 10 manatlıq çek üçün bir kupon təqdim edilir. Digər bankların kartları ilə ödəniş edənlər isə əvvəl olduğu kimi, bu il də 20 manatlıq alış-veriş çekinə görə bir kupon əldə edirlər.




İDEAL DİZAYN
Daimi tərəfdaşınız
Ofis mebeli və layihələr
– Metal dolablar
– Metal stellaj sistemi
– Metal tumbalar
– Metal seyflər
– Metal masalar



Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az

# Avtobuslarda yeni nəzarət sistemi quraşdırılır



Avtobuslarda yeni izləmə avadanlığının quraşdırılmasına başlanılıb. GPS treker adlanan bu telematik blok nəqliyyat vasitəsinin olduğu ərazi, hərəkətin sürəti, yanacağın sərfiyyatı, ölçmə cihazının vəziyyəti (mühərrik işə salınıb, qapı açıq qalıb və sairə) barədə məlumatı real vaxt rejimində dispetçer mərkəzinə ötürür.

Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzindən (NİİM) AZƏRTAC-a bildirilib ki, xüsusilə, sürücülük qabiliyyətinə nəzarət sistemi yolda baş vermiş pozuntular (kobud sürücülük, sürət həddinin aşması və sairə) haqqında məlumatı toplayır və işçi heyətinin fəaliyyətinin qiymətləndirilməsi sisteminə göndərir. Həmin sistemin köməyi ilə dispetçer istənilən müddət ərzində və müxtəlif səfərlər üzrə sürücülük qabiliyyətinin dəqiq qiymətləndirilməsinə nəzarət edə bilər.

Sürücülük qabiliyyətinin qiymətləndirilməsi prosesi izləmə avadanlığından əldə edilən məlumat əsasında tərtib olunur. Hesablamanın əsasını sürətin aşması, kəskin sürətləndirmə, əyləc, dönüş və sairə göstəricilər təşkil edir. Sistemin köməyi ilə səhlənkar sürücüləri müəyyən etmək, yol hərəkətinin təhlükəsizliyini artırmaq, yanacaq və istismar xərclərinə də xeyli qənaət etmək üçün imkan yaradılır.

Artıq paytaxtda fəaliyyət göstərən marşrut avtobuslarına izləmə avadanlıqlarının quraşdırılması işlərinə başlanılıb. 43 marşrut xətti üzrə fəaliyyət göstərən 640 avtobusda izləmə avadanlığı var.

Həmçinin, dayanacaqlardakı avtobus informasiya terminallarında avtobusların çatma vaxtlarının da əks olunması istiqamətində işlər aparılır. Belə ki, avtobuslarda quraşdırılan izləmə cihazı vasitəsilə toplanan məlumatlar avtomatik olaraq dayanacaqlardakı monitorlara ötürüləcək. Bununla da sərnişinlər dayanacaqda olarkən monitora baxaraq ən yaxın avtobusun (marşrutlar üzrə) neçə dəqiqəyə çatacağı haqqında mütəmadi məlumatlandırılacaq.

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3400